# Azərbaycan İlahiyyat İnstitutu Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU • AZERBAIJAN INSTITUTE OF THEOLOGY • 2018

№ 3
yanvar-iyun
2021




səh.25

"Ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafı naminə xidmətləri" mövzusunda videokonfrans



İCTİMAİ NƏZARƏT ŞURASININ İCLASI

səh.5



Azərbaycan İlahiyyat İnstitutunun üçillik fəaliyyətinə həsr olunmuş onlayn tədbir

səh.7-8



Beynəlxalq Ana Dili Günü münasibətilə vebinar

səh.12

“Türk dünyasının görkəmli ictimai-siyasi xadimi – Əhməd bəy Ağaoğlu” mövzusunda keçirilmiş Simpoziumun materialları çap olunub

səh.9



31 Mart – Azərbaycanlıların Soyqırımı Günü anılıb

səh.19-20



AİI rektoru Avropa Şurası İşçi qrupunun iclasına qatılıb

səh.18



“40 hədis” yarışması

səh.17

AİI rektoru beynəlxalq elmi-praktiki konfransa qatılıb

səh.30



İLAHİYYAT FAKÜLTƏSİNİN DEKANI BEYNƏLXALQ SİMPOZİUMDA

səh.30





“Dini-irfani və fəlsəfi kontekstdə Nizami Gəncəvi yaradıcılığı” mövzusunda respublika elmi konfransı

səh. 28-29

## "İlahiyyat" elmi-publisistik jurnalının növbəti sayı çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutunun "İlahiyyat" elmi-publisistik jurnalının növbəti sayı dərc olunub.

Doqquz rubrikadan ibarət jurnalda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin Aİİ-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın budəfəki sayı "Rəsmi guşə" rubrikası ilə başlayır.

Aİİ rektoru Aqil Şirinovun müsahibəsi, "Təhsil innovasiyaları və onların tətbiqi" adlı məqalə "Təhsil" rubrikasında dərc olunub.

Jurnalın "Cəmiyyət və din" rubrikasında "İdeoloji təhlükəsizlikdə din amili"; "Ümumbəşəri dinlər"; "Sosial - psixoloji və din düşüncə sistemlərində dindəyişdirmə" və "Azərbaycan Xalq Cümhuriyyəti dövründə din tədrisi" adlı məqalələr dərc olunub.

"Sədrəddin Şirazi – Şərqdə transsendental fikrin banisi" adlı məqalə "Müsəlman mütəfəkkirlər" rubrikasında yer alıb.

"İlahiyyat" elmi-publisistik jurnalının "İslam əxlaqı" rubrikasında "İslamafobiya Qarabağ müstəvisində"; "İslamda ağıl: mahiyyəti və funksiyaları"; "İslamda qadının mövqeyi"; "Şəhidlik məqamı"; "Övlad tərbiyəsi" mövzusunda məqalələr çap olunub.

"Araşdırma" rubrikasında isə "Qloballaşan dünyada elmi araşdırmaların mahiyyəti; "Yalançı peyğəmbərlər"; "İbn Xaldunun bədəvi (səhrada köçəri həyat sürən ərəblər) ümran nəzəriyyəsinin analizi"; "Memarlıq abidələri canlı tarixin şahididir" başlıqlı məqalələr dərc olunub.




"Qurana görə insanın yaranması"; "Ölümün qardaşı – yuxu"; "Allah həddini aşanları sevmir"; "İmam Hüseyn (ə) və Kərbəla hadisəsi" və "Ədl" mövzusunda yazılar "Baxış bucağı" rubrikasında yerləşdirilib.

"Abidələrəmiz" rubrikasında "Hira: peyğəmbərliyə hazırlıq, yoxsa fikri böhran?!"; "Qubanın ən qədim Əbu Muslim məscidləri" başlıqlı məqalələr dərc edilib.

Jurnalın sonuncu "Ədəbiyyat" rubrikasında Valeriya Poroxova ilə müsahibə; "Qatil" adlı hekayə, "Bu yağışı dənə-dənə öpərəm" mövzusunda məqalə və "Minacat" adlı şeir yer alıb.

Qeyd edək ki, təsisçisi Azərbaycan İlahiyyat İnstitutu olan "İlahiyyat" elmi-publisistik jurnalının ildə 3 dəfə nəşr olunması nəzərdə tutulub.

## "Qurani-Kərim əlifbası" və "Qurani-Kərim təcvidi" kitabları nəşr olunub







Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlovun "Qurani-Kərim əlifbası" və "Qurani-Kərim təcvidi" adlı kitabları nəşr olunub.

"Qurani-Kərim əlifbası" kitabı Quran qiraəti tədrisinin birinci mərhələsində istifadə olunacaq ədəbiyyatdır. Kitabın əvvəlində Qurani-Kərimin tarixi haqqında geniş məlumat verilir. Daha sonra hərflərin adları, məxrəcləri, xüsusiyyətləri və onların əvvəldə, ortada, sonda yazılışı barədə ətraflı bəhs olunur. Həmçinin hərflərin məxrəcləri əlifba sırasına uyğun surətdə qeyd edilir.

Vəsaitdə hərflərin hərəkələrlə, sükunlu, təşdidli, tənvinli oxunuşu ilə bağlı ayr-ayrı izahlı hissələr mövcuddur. Ədəbiyyat nümunəsində Məd və Müqəttəə hərfləri barədə geniş hissə, daha sonra Namaz duaları və Qurani-Kərimin surələri öz əksini tapır.

Kitab hazırlanarkən digər müsəlman ölkələrinin, eləcə də ölkəmizdə 1992-2018-ci illərdə fəaliyyət göstərmiş Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin təcrübəsindən istifadə olunub.

"Qurani-Kərim təcvidi" kitabı isə Quran qiraəti tədrisinin ikinci mərhələsində istifadə olunacaq ədəbiyyatdır. Nümunədə əvvəlcə təcvid elminin tərifi, məqsədi, hökmü haqqında məlumat verildikdən sonra, Quran oxuyarkən ortaya çıxacaq xətalar və bu xətaların ibadətə təsiri haqqında bəhs olunur. Bundan sonra ənənəyə uyğun olaraq məd, idğam bəhsi, sakin nun və tənvinə aid hökmlər, sakin mimin hökmləri, hərfi-tərifə aid hökmlər, ra hərfinə aid hökmlər, səktə, vəsl və vəqf, işmam, imalə, təshil kimi təcvid qaydaları nəzəri surətdə izah olunur, Qurani-Kərimdən götürülmüş misallarla təsvir edilir. Təcrübəyə əsasən bəzi qaydaların daha aydın başa düşülməsi və asan yadda qalması üçün onlar sxemlər üzrə sıralanır.

Hər iki kitabın hazırlanmasında Azərbaycan, ərəb və türk dillərində olan mənbələrdən istifadə olunub.

## AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA QIŞ İMTAHAN SESSİYASI BAŞLANDI

Azərbaycan İlahiyyat İnstitutunda 11 yanvar 2021-ci il tarixdə bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası başlayıb. Dörd həftə davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, "Microsoft Teams" platforması üzərindən onlayn, əsasən, şifahi, ehtiyac olduğu təqdirdə isə yazılı formada həyata keçirilir.

Ali tədris müəssisəsində xüsusi karantin rejiminin tələblərini və məsafədən tədrisin reallıqları nəzərə alınaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

Qeyd edək ki, COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 2 noyabr 2020-ci il tarixdən etibarən distant formada keçirilir. AİI-də cari tədris prosesi Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən təşkil edilib. Tələbələrin imtahanlarda daha fəal iştirak etmələri üçün güzəştlər tətbiq olunur.



İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb. Qərargah mövcud şəraitə uyğun olaraq məsafədən onlayn şəkildə fəaliyyət göstərəcək. Daxil olan elektron müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılacaq və lazımi tədbirlər görüləcək.

## "Din araşdırmaları" jurnalının növbəti sayı çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutunun elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının beşinci sayı dərc edilib.

Jurnalın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 15 məqalə yer alıb. Din sosiologiyası, din psixologiyası, kəlam, İslam məzhəbləri tarixi, tarix, fəlsəfə, multikulturalizmə dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalda Azərbaycan, rus, ingilis və türk dillərində də məqalələr dərc olunub. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Məlumat üçün bildirək ki, akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




Qeyd edək ki, "Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 19 yanvar 2021-ci il tarixdə 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirilib.

"ZOOM" proqramı vasitəsilə onlayn formada təşkil olunan tədbirdə İnstitutun rəhbər heyəti, müəllimlər, əməkdaşlar və tələbələr iştirak ediblər.

Tədbir Aİİ-nin II kurs tələbəsi Murad Kərəmovun təqdimatında faciə zamanı qətlə yetirilmiş insanların əziz xatirəsinə Qurani-Kərim tilavəti ilə başlayıb.

Mərasimi giriş nitqi ilə açan İnstitutun rektoru Aqil Şirinov 1990-cı ilin yanvarın 20-də, həmçinin Vətən müharibəsində şəhid olanların ruhuna rəhmət, yaralılara şəfa diləyib. Daha sonra Azərbaycan xalqının mübariz və qəhrəman olduğunu qeyd edib. Azadlıq mübarizəsinin ən bariz nümunəsi olan 20 Yanvar gecəsi yaşananlar barədə ətraflı danışan rektor o müdhiş günlərdə Azərbaycan xalqının yanında olan ümummilli lider Heydər Əliyevi xatırlayaraq onun xidmətlərini vurğulayıb. Həmin illərdən başlayaraq itirilən torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin və Müzəffər Ordumuzun səyi nəticəsində geri qaytarıldığını nəzərə çatdıran rektor bu faciəvi hadisələrin xalqımızın zehnindən silinmədiyini, hər il yüzlərlə, minlərlə insanın Şəhidlər xiyabanına axışdığını və həmin dövr şəhidlərinə dövlət qayğısını qeyd edib.

Daha sonra AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı çıxış edərək, 20 Yanvarın tariximizə həm hüzn, həm də mübarizə günü kimi yazıldığını vurğulayıb. 20 Yanvar faciəsi ilə bağlı canlı şahidi olduğu hadisələri bölüşüb, xüsusilə tarixi faktları qeyd edərək, həmin günlər Azərbaycan xalqına qarşı törədilmiş vəhşiliklər barədə faktlarla danışıb.

Sonra Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov söz alaraq, şəhidlik məqamı haqqında ətraflı bəhs edib. "Şəhid" sözünün terminoloji



mənasını izah edən Ə.Niyazov, şəhidlik məqamının İslam mədəniyyətindəki, həmçinin dindəki mövqeyindən danışıb. Dini cəhətdən şəhidə bəxş edilən nemətlərdən, Qurani-Kərimdə şəhidlər haqqında ayələrdən, həmçinin Həzrət Peyğəmbərin (ə) onlar haqqında dediklərindən ətraflı bəhs edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov çıxış üçün söz alıb. O, Vətənin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş Azərbaycanın oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edib. Vurğulayıb ki, belə tarixi günləri qürur mənbəyi, mübarizlik əzmi kimi gənc nəslə təbliğ etməliyik.

# "QAFQAZDA ƏRƏBCƏ MƏKTUBAT ƏNƏNƏSİ NÜMUNƏLƏRİ (XIX-XX ƏSRLƏR)" KİTABI NƏŞR OLUNUB




Azərbaycan İlahiyyat İnstitutunun dəstəyi ilə fəlsəfə üzrə fəlsəfə doktoru Kamran Abdullayevin "Qafqazda ərəbcə məktubat ənənəsi nümunələri (XIX-XX əsrlər)" adlı kitabı nəşr olunub.

Kitab dörd bölmədən və hər bölmənin müxtəlif hissələrindən ibarətdir.

Nəşrdə Qafqazda ərəb dilinin tarixi, ədəbiyyatı və xüsusiyyətləri, Qazavat dönəmi ilə əlaqədar məktublar, Siyasi məktublar, Ədəbi-ictimai məktublar bölmələrində məktubat nümunələri və tərcümələr yer almışdır.

Araşdırma əsərində Qafqazın siyasi, ictimai cəhətdən fəal dönəmi olan XIX-XX əsrlərdə göndərilmiş bəzi məktub nümunələri, eləcə də məktubat mövzusu nəzərdən keçirilmişdir.

Tədqiqat əsərində müxtəlif millətlərlə zəngin olan, ictimai-siyasi həyatında rəngarənglik görüntüsü yaradan Qafqaz coğrafiyasında yerli dillərdən biri olmayan, ancaq müsəlman xalqlarının ünsiyyətində xüsusi yer tutan ərəb dilində qələmə alınaraq göndərilmiş məktublardan bəhs edilib. Həmçinin ərəb dilinin Qafqazda müsəlman və qeyri-müsəlman millətlər arasındakı önəmi araşdırılıb.

Kitabın hazırlanmasında Azərbaycan, ərəb, rus və türk dillərində olan mənbələrdən istifadə olunub.

# İCTİMAİ NƏZARƏT ŞURASININ İCLASI

Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında 2 fevral 2021-ci il tarixdə İctimai Nəzarət Şurasının onlayn iclası keçirilib.

İclas “ZOOM” proqramı vasitəsilə təşkil olunub.



Tədbirdə çıxış edən Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov iclas iştirakçılarını salamladıqdan sonra bildirib ki, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, həmçinin təlim-tərbiyə prosesi payız semestri boyunca distant formada davam edib. O qeyd edib ki, Aİİ-də tədris prosesi Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, onlayn şəkildə “Microsoft Teams” platforması üzərindən təşkil olunub. Rektor “Microsoft Teams” platformasının üstünlüklərindən danışaraq qeyd edib ki, məsafədən dərslərə qoşula bilməyən tələbələrin daha sonra proqramdan istifadə etmək imkanları olub.

Aİİ rəhbəri imtahanların keçirilmə qaydası ilə bağlı Elmi Şuranın qərarlarını açıqlayaraq, qış sessiyası ərzində tələbələrin imtahanlarda iştirakı, müvəffəqiyyət və keyfiyyət göstəricilərini diqqətə çatdırıb. Həmçinin cari dövrdə Aİİ-də fəaliyyət göstərən onlayn kurslar, İnstitutun beynəlxalq əlaqələrindən də söz açıb.



Nəzarət Şurasının sədri, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev isə Aİİ-nin yaradılmasının və fəaliyyətinin cəmiyyət üçün vacibliyini vurğulayaraq, İnstitutun din sahəsində mütəxəssis yetişdirməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Nəzarət Şurasının üzvü – təhsil üzrə ekspert, professor Şahlar Əsgərov Aİİ-ni cari dövrdə əldə etdiyi uğurlara görə təbrik edib. O, İnstitutun beynəlxalq münasibətlərini genişləndirməsini yüksək qiymətləndirib, təhsil, təlim-tərbiyə prosesinə dair öz dəyərli tövsiyələrini verib.

Millət vəkili Arzu Nağıyev çıxışında pandemiya dövründə distant tədris prosesinin keyfiyyətinə toxunaraq, bu dövrdə müəllimlərin öhdələrinə düşən məsuliyyətli, şərəfli işi yüksək qiymətləndirib.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Aİİ-nin qısa zaman ərzində ölkənin ictimai-siyasi həyatında nüfuz qazandığını vurğulayaraq, ali təhsil müəssisəsinin elmi nəşrlərini, jurnal və məcmuələrin dərcini yüksək qiymətləndirib.

Təhsil üzrə ekspert Nadir İsrafilov görüş iştirakçılarını salamlayaraq, pandemiya dövründə onlayn dərslərin təhsilimizə qazandırdığı təcrübədən geniş danışıb, distant təhsil zamanı qiymətləndirmədə yaranan çətinliklərdən bəhs edib.

Modern.az saytının rəhbəri Elşad Eyvazlı ötən dövrdə Aİİ-nin fəaliyyətini yüksək qiymətləndirib. Ölkəmizdə fəaliyyət göstərən müxtəlif dinlərə mənsub din xadimləri ilə münasibətlərin yüksək səviyyədə saxlanılmasına dair fikirlərini bölüşüb və cəmiyyət üçün dəyərli mütəxəssis yetişdirən ali təhsil ocağına uğurlar arzu edib.

Məlumat üçün bildirək ki, İctimai Nəzarət Şurasının əsas məqsədi Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, İnstitut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsilalanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# QIŞ İMTAHAN SESSİYASI SONA ÇATIB



Azərbaycan İlahiyyat İnstitutunda 5 fevral 2021-ci il tarixdə 2020/2021-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası sona çatıb. Dörd həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun surətdə, “Microsoft Teams” platforması üzərindən onlayn, əsasən, şifahi, ehtiyac olduğu təqdirdə isə yazılı formada həyata keçirilib.

Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində olduğu kimi, AİI-də də cari ilin payız semestri distant formada, Təhsil




Nazirliyinin tövsiyəsinə uyğun olaraq, “Microsoft Teams” platforması üzərindən təşkil edilib.

Tələbələrin imtahanlarda daha fəal iştirak etmələri üçün Elmi Şuranın qərarına əsasən bir sıra güzəşt tətbiq olunub. Belə ki, cari ilin payız semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı onlayn dərslərdə iştirak edən tələbə və magistrantlar tədris prosesində əldə etdikləri nəticələr əsasında qiymətləndiriliblər. Dərsə davamiyyətindən asılı olmayaraq, bütün tələbələr imtahanlara buraxılıblar. İmtahanlara giriş üçün tələbələrə, ən azı, 20 bal müəyyənləşdirilib.

Qeyri-ixtisas fənləri (Mülki müdafiə, İnformatika və kompüter texnologiyası və Multikulturalizmə giriş) üzrə imtahanlar ləğv olunub. Həmin fənlər üzrə tələbələrin qiymətləndirilmələri təhsil müddətində əldə etdikləri nəticələr (ÜOMG) əsasında hesablanıb.




İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali



təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb.

İmtahan sessiyasının gedişatı Dekanlıq, Tədris şöbəsi və aidiyyəti kafedralar tərəfindən “Microsoft Teams” platforması üzərindən izlənilib.

Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, AİI-də təsis olunmuş Heydər Əliyev adına təqaüd, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təsis edilmiş Şeyxülislam adına və Vasim Məmmədəliyev adına təqaüdlər veriləcək.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN ÜÇİLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ ONLAYN TƏDBİR

Azərbaycan İlahiyyat İnstitutunun üçillik fəaliyyətinə həsr olunmuş onlayn tədbir 9 fevral 2021-ci il tarixdə keçirilib. Aİİ-nin rektoru Aqil Şirinov açılış nitqi



ilə çıxış edərək, İnstitutun üçillik fəaliyyəti barədə məlumat verib. A.Şirinov qeyd edib ki, qlobal pandemiya ilə əlaqədar respublikamızda həyata keçirilən tədbirlər çərçivəsində, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrlərinə əsasən, ölkə üzrə tədris və təlim-tərbiyə prosesi 2020-ci ilin mart ayından etibarən dayandırıldığına görə, Aİİ-də tədris prosesi məsafədən, onlayn formada təşkil olunub. Rektor bu məqsədlə İnstitutun "Microsoft Teams" platformasına qoşulduğunu da diqqətə çatdırıb. Platformada tədrisin cədvələ uyğun şəkildə təşkil edildiyini, qış imtahan sessiyasının uğurla davam etdiyini bildirib. Daha sonra qeyd edib ki, tələbələrin yüksəkixtisaslı kadr kimi yetişmələri üçün müxtəlif kursların təşkili həyata keçirilir. Hazırda klassik ərəbdilli mətnlərin oxunması, ingilis dilində 4 dil bacarığının mükəmməlləşdirilməsi istiqamətində kurslar davam edir. Həmçinin müxtəlif yarışlar təşkil olunur ki, burada da tələbələrimizin iştirakı təmin edilir.

A.Şirinov pandemiya dövrü bitdikdən sonra, baş tutacaq layihələr haqqında da məlumat verib, İnstitutun fəaliyyətinin daha səmərəli təşkili üçün kollektivin birgə əməyini yüksək qiymətləndirib.

Aİİ rəhbəri İnstitutda tədrislə yanaşı, tədqiqat sahəsində də bir çox işlərin görüldüyünü vurğulayıb. Qeyd edib ki, ildə iki dəfə elmi jurnalımız, il ərzində müəllimlərimizin araşdırma əsərləri çap olunur. Bu əsərlərin bir çoxu yeni tədqiqat nümunələridir.

İnstitutda tədrisin daha da təkmilləşdirilməsinə xüsusi önəm verildiyini qeyd edən A.Şirinov bu məqsədlə müxtəlif qabaqcıl xarici ölkə universitetləri ilə əlaqələrin qurulduğunu nəzərə çatdırıb.

A.Şirinov BDU-nun keçmiş İlahiyyat fakültəsinin strukturunda yaradılan İlahiyyat İnstitutunun üçillik



fəaliyyətindən danışdığı zaman, mərhum akademik Vasim Məmmədəliyevin hər zaman rəhmətlə anıldığını bildirib.



Millət vəkili Ceyhun Məmmədov çıxış edərək, Azərbaycanda mövcud dövlət-din münasibətləri haqqında danışıb. C.Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O, Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətini uğurla davam etdirdiyini nəzərə çatdırıb. İnstitutda tam şəffaf mühitin hökm sürdüyünü, neqativ halların olmadığını bildirib.

**(Ardı 8-ci səhifədə)**

# "ƏRƏB DİLİ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovun "Ərəb dili" kitabı nəşr olunub.

Gələcəkdə dərslik kimi nəşr olunması nəzərdə tutulan kitab İlahiyyat fakültəsinin "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları üzrə təhsil alan I-II kurs tələbələri üçün tərtib olunub.

Kitabda qarşıya qoyulan başlıca məqsəd ərəb dili üzrə oxu, yazı və tərcümə bacarıqlarını formalaşdırmaq, tələbələrdə müasir ərəb dilinin lazımi səviyyədə mənimsənilməsini təmin edəcək məlumat bazası yaratmaqdır.

Kitab 20 dərsdən, əksəriyyəti dini mövzulara aid 12 mətn və ərəbcə-azərbaycanca qısa lüğətdən ibarətdir. Mövzular sadədən-mürəkkəbə, asandan-çətinə doğru bölüşdürülmüşdür. Belə ki, leksik-qrammatik mövzuları ilk semestr üçün çox asan, ikinci semestr üçün orta-çətin, üçüncü və dördüncü semestrlər üçün nisbətən çətin olaraq səciyyələndirmək mümkündür. İyirmi dərsdən ibarət olan kitabda ərəb dilinin fonetikası, morfologiya və sintaksisi tələbələrdə lazımi söz ehtiyatını formalaşdıracaq nümunələr (sözlər və cümlələr) əsasında praktik şəkildə öyrədilir.

Hər bir qrammatik mövzuya dair seçilmiş tapşırıqlar tələbələrdə praktik və nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN ÜÇİLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ ONLAYN TƏDBİR

**(Əvvəli 7-ci səhifədə)**

Millət vəkili İnstitutun tədqiqat müəssisəsi kimi də fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, birlikdə daha güclü təhsilin verilməsi, məzunların yüksəkixtisaslı kadr kimi yetişməsi üçün çalışmalıyıq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov İnstitutun səmərəli üçillik fəaliyyəti ilə əlaqədar kollektivi təbrik edib. Bildirib ki, Aİİ-nin yaradılması dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması, ölkəmizdə din təhsili sahəsində yüksəkixtisaslı kadrların hazırlanması baxımından xüsusi əhəmiyyətə malikdir. Sədr müavini İnstitutun üçillik fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, qısa zaman kəsiyində ali təhsil müəssisəsi müsbət mənada kifayət qədər tanınıb. G.İsmayılov ixtisaslarına dərindən yiyələnmək istəyən, gələcəkdə din xadimi olacaq abituriyentlərin qəbulunu həyata keçirməyin vacibliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev bildirib ki, İnstitutun üçillik fəaliyyətini zəfər çalmış ölkənin vətəndaşları olaraq qeyd edirik. İslam dininin elmə, oxuyub-öyrənməyə böyük əhəmiyyət verdiyini bildirən F.Nurullayev Quranın ilk nazil olan ayəsinin "Oxu" əmri ilə başladığını vurğulayıb. İnstitutun bugünkü fəaliyyətini təhsil mərkəzi olaraq yüksək qiymətləndirən sədr müavini kollektivə fəaliyyətində uğurlar arzu edib. F.Nurullayev, həmçinin BDU-nun keçmiş İlahiyyat fakültəsinin dekanı, mərhum akademik Vasim Məmmədəliyevin adını ehtiramla qeyd edərək, İnstitutun üçillik fəaliyyətində onun yetişdirdiyi tələbələrin əməyini qeyd edib.



Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov da kollektivi üçillik fəaliyyəti ilə bağlı təbriklərini çatdırıb, Aİİ heyətinə gələcək fəaliyyətində uğurlar arzu edib. M.İsmayılov bildirib ki, Aİİ-nin yaradılması dini-mənəvi dəyərlərimizin qorunması baxımından mühüm qərarlardan biridir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis edilib.

## "Türk dünyasının görkəmli ictimai-siyasi xadimi – Əhməd bəy Ağaoğlu" mövzusunda keçirilmiş Simpoziumun materialları çap olunub




Azərbaycan İlahiyyat İnstitutu (AİI), Türk Ocaqları İstanbul şöbəsi, İstanbul Universiteti Türkiyat Araşdırmaları İnstitutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) birgə təşkilatçılığı ilə Türkiyə və Azərbaycanda "Türk dünyasının görkəmli ictimai-siyasi xadimi – Əhməd bəy Ağaoğlu" mövzusunda keçirilmiş Simpoziumun materialları dərc olunub.

Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi münasibətilə keçirilən Simpoziumun materialları Türk Ocaqları İstanbul şöbəsi tərəfindən çap edilib. Topluda hər iki ölkədən olan konfrans iştirakçılarının 35 məqaləsi yer alıb.

"Ön söz"ün müəllifi Türk Ocaqları İstanbul şöbəsinin müdiri Cezmi Bayram Əhməd bəy Ağaoğlunun təkcə Azərbaycan deyil, eləcə də Türkiyə üçün önəmli şəxsiyyətlərdən olduğunu, böyük mütəfəkkirin Türk Ocaqlarının yaradılmasında yaxından iştirak etdiyini bildirib. Qeyd edib ki, Əhməd bəy Ağaoğlu Milli Oyanış Hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınmışdır.

Qeyd edək ki, 19-20 sentyabr 2019-cu ildə Bakıda, 21-22 oktyabr 2019-cu ildə İstanbul şəhərində böyük mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi ilə əlaqədar olaraq simpoziumlar keçirilmişdir.

## AİI-nin PROREKTORU BEYNƏLXALQ KONFRANSDA

Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov 12 fevral 2021-ci il tarixdə "Pandemiya şəraitində insan, iqtisadiyyat, cəmiyyət: regional, qlobal və federal aspektlər" mövzusunda təşkil olunan XV beynəlxalq elmi-praktik konfransda iştirak edib.





Beynəlxalq elmi-praktik konfrans "ZOOM" proqramı üzərindən onlayn formatda keçirilib.

Qafqaz Xalqları Dostluğu İnstitutu, Avrasiya Alimlər Klubu və Beynəlxalq Pedaqoji Akademiyanın birgə təşkilatçılığı ilə baş tutan konfransda dünyanın müxtəlif ali təhsil müəssisələri və qurumlarından olan alimlərin məruzələri dinlənilib.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov beynəlxalq konfransda "Gənclərin formalaşmasında dinin rolu" mövzusunda məruzə ilə çıxış edib.

M.Mürsəlov çıxışında gənclərin formalaşmasında dinin rolu haqqında ətraflı danışaraq, dindarlaşmanın artdığı bir dövrdə din tədrisinin xüsusi önəmini vurğulayıb. Radikal və ekstremizmdən uzaq bir mühitin qurulmasının və bu istiqamətdə gənclərin maariflənməsinin önəmini diqqətə çatdırıb. Ölkəmizdə din təhsili sahəsində aparılan işləri vurğulayan prorektor Azərbaycan İlahiyyat İnstitutunda tədris və təlim-tərbiyə prosesində məzhəblərüstü prinsiplərin gözlənildiyini bildirib.

Konfrans müxtəlif ölkələrin universitetlərini təmsil edən alimlərin məruzələri ilə öz işini davam etdirib.

# YAZ SEMESTRİ ÜZRƏ DƏRSLƏR BAŞLAYIB

Azərbaycan İlahiyyat İnstitutunda 2020/2021-ci tədris ilinin bakalavriat və magistratura səviyyələrində yaz semestri üzrə onlayn dərslərə 15 fevral 2021-ci il tarixdə start verilib.

Dərslər Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, distant (məsafədən) formada "Microsoft Teams" platforması üzərindən keçirilir.





Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, ölkə üzrə xüsusi karantin rejiminin tətbiqi qaydalarına uyğun olaraq, həmçinin Təhsil Nazirliyinin müvafiq əmri ilə ölkə ərazisində fəaliyyət göstərən ali, orta və peşə məktəblərində fevralın 15-dən etibarən, xüsusi praktiki məşğələlər tələb edən ixtisaslar əyani, digər ixtisaslar üzrə dərslər distant formada (məsafədən) onlayn şəkildə başlayıb.

## Tələbələr vebinarda iştirak ediblər



Azərbaycan İlahiyyat İnstitutunun tələbələri 16 fevral 2021-ci il tarixdə "Natiqlik bir sənətdir" mövzusunda təşkil olunan vebinarda iştirak ediblər.

Tədbirdə təlimçi Zaur Cahangirovun mövzu ətrafında geniş məruzəsi dinlənilib. Məruzəçi öncə natiqlik mədəniyyətinin yaranma tarixindən bəhs edib. Bildirib ki, natiqlik üç əsas komponentdən – danışmaq, dinləmək və düşünməkdən ibarətdir. Müasir zamanda səlis nitq qabiliyyətinin inkişafının mütləq olduğunu qeyd edən

Təlimçi söz ehtiyatının formalaşması üçün səsli kitab oxumağın vacibliyinə toxunub. O vurğulayıb ki, yaxşı natiq olmaq üçün dinləməyi bacarmaq lazımdır: "Dinləməyin Çin dilindəki qarşılığı "Mən sənə qulağımı, gözlərimi, qəlbimi və diqqətimi verirəm", – deməkdir".

Məruzəçi gənclərə natiqliyin növlərindən bəhs edib, onlara aid nümunələr gətirib. Dini natiqlikdən danışarkən Məhəmməd peyğəmbərin Vida xütbəsini misal gətirib.

Tədbirdə daha sonra bəlağət elmi haqqında müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tə-



ləbələrin asudə vaxtlarının səmərəli təşkili, onların ideya və təkliflərinin reallaşması üçün müxtəlif layihələrdə və maarifləndirici seminarlarda iştirakına xüsusi diqqət yetirir.

## REKTORUN TƏLƏBƏLƏRLƏ ONLAYN İCLASI



Azərbaycan İlahiyyat İnstitutunda 2020/2021-ci tədris ilinin yaz semestrinin başlanması ilə bağlı olaraq 18 fevral 2021-ci il tarixdə onlayn iclas keçirilib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunan iclasda AİI-nin rəhbər heyəti, müəllimləri və tələbələri iştirak ediblər.

İclasda çıxış edən İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov yeni semestrin başlanması münasibətilə müəllim və tələbələri təbrik edib. Rektor Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması, həmçinin Təhsil Nazirliyinin müvafiq əmri ilə AİI-də tədris, təlim-tərbiyə prosesinin distant (məsafədən) başlanması ilə bağlı ətraflı danışıb.



Dərslərin Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, distant (məsafədən) formada "Microsoft Teams" platforması üzərindən keçiriləcəyini qeyd edən rektor bu proqramın üstünlüklərindən bəhs edib, tələbələrin dərslərdə fəal şəkildə iştirak etmələrini, proqramın üstünlüklərindən yararlanmağı tövsiyə edib.

Rektor tələbələrə AİI-də həyata keçirilən dil kurslarında, müxtəlifmövzulu müsabiqələrdə fəal iştirak etmələrini tövsiyə edib.

İnstitut rəhbəri daha sonra keçən qış imtahan sessiyasında tələbələrin göstəricilərini diqqətə çatdıraraq, adlı təqaüdlərə layiq görülənləri təbrik edib.

Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG) əsasən, təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, adlı təqaüdlər də verilir. Qış imtahan sessiyasının nəticələrinə görə, AİI-də təsis olunmuş Heydər Əliyev adına təqaüdə 1, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təsis edilmiş Şeyxülislam adına təqaüdə 1 və Vasim Məmmədəliyev adına təqaüdə isə 3 nəfər layiq görülüb.

İclas tələbələri maraqlandıran suallar ətrafında müzakirələrlə davam edib.

## "İzahlı dini terminlər lüğəti" çapdan çıxıb




Azərbaycan İlahiyyat İnstitutu tərəfindən hazırlanan "İzahlı dini terminlər lüğəti" nəşr olunub.

Lüğət Azərbaycan İlahiyyat İnstitutunun müəllim heyəti tərəfindən işlənərək ərsəyə gətirilib. Terminlər əlifba sırası ilə verilib, lüğəvi və terminoloji mənaları izah edilib.

Qeyd edək ki, lüğət hazırlanarkən yalnız İslam dini ilə əlaqəli terminlərin deyil, həmçinin digər böyük dünya dinlərində də istifadə olunan əsas ifadələrin izahı verilib. Terminlərin şərhləri və izahında həm yerli, həm də xarici ölkələrdə çap olunmuş elmi-dini ədəbiyyatdan istifadə olunub. Həmçinin kitabın hazırlanması zamanı Azərbaycan, ərəb, türk, ingilis, rus və fars dillərində yazılmış müxtəlif lüğətlərdən, ensiklopediyalardan, eləcə də təfsir, hədis, fiqh, kəlam, təsəvvüf, fəlsəfə, tarix, antropologiya, dinlər tarixi, din sosiologiyası, din psixologiyası, din fenomenologiyası və başqa sahələrdəki kitablardan istifadə olunub.

Qeyd edək ki, ölkəmizdə hər il din sahəsində çox sayda əsər nəşr olunur. Dini nəşrlərin elmi və linqvistik keyfiyyətinin artırılması üçün vahid terminologiyanın yaradılması vacibdir. Azərbaycan İlahiyyat İnstitutunun hazırladığı "İzahlı dini terminlər lüğəti" məhz bu zərurətdən irəli gəlib.

"İzahlı dini terminlər lüğəti"nin dini terminologiya sahəsindəki tədqiqatlara töhfə verəcəyinə inanırıq.

# Beynəlxalq Ana Dili Günü münasibətilə vebinar

Azərbaycan İlahiyyat İnstitutunda 19 fevral 2021-ci il tarixdə Beynəlxalq Ana Dili Gününə həsr edilmiş vebinar keçirilib.

Vebinar “ZOOM” proqramı vasitəsilə onlayn formatda təşkil olunub.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov açılış nitqi ilə qonaqları və vebinar iştirakçılarını salamladıqdan sonra, 21 fevralın Beynəlxalq Ana Dili Günü kimi qeyd olunmasının tarixindən ətraflı danışıb, tarix boyu Azərbaycan dilinin qarşılaşdığı problemləri dilə gətirib.



Daha sonra müstəqillik dövründə Heydər Əliye-



vin dil sahəsindəki xidmətlərini vurğulayıb.

Vebinarın moderatoru – AİI Dillər və ictimai fənlər kafedrasının dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı tədbir iştirakçılarını salamladıqdan sonra, Ana dilinin insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm vasitə olduğunu qeyd edib.

AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu tədbir iştirakçılarını salamladıqdan sonra, “Ana dilimiz milli sərvətimizdir” mövzusunda çıxış edib. M.Nağısoylu Ana dilinin hər bir millət üçün milli sərvət olduğunu xüsusi vurğulayıb. Dilimizi tarix boyu yaşadan söz ustalarından, alimlərdən, yazıçılardan sitatlar gətirərək, dilin qoruyucusunun, daşıyıcısının xalq olduğunu nəzərə çatdırıb.

Azərbaycan Dillər Universitetinin məsləhətçi professoru, Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının üzvü, fil.e.d., prof. Adil Babayev “Dil millətin tək nişanıdır” mövzusunda məruzə edib. A.Babayev Ana dilinin saflığını qorumağın, ədəbi dil normalarının gözlənilməsinə nəzarət etməyin, həmçinin dili yad ünsürlərdən təmizləməyin hər bir Azərbaycan vətəndaşının borcu olduğunu bildirib.

Azərbaycan Dövlət Pedaqoji Universiteti Müasir Azərbaycan dili kafedrasının müdiri, Azərbaycan



Respublikası Dövlət Dil Komissiyasının üzvü, fil.e.d., prof. Buludxan Xəlilov tədbir iştirakçılarını təbrik etdikdən sonra, Ana Dili Günü münasibətilə keçirilən vebinarı yüksək qiymətləndirib. “Azərbaycan dilinin imkanları” mövzusunda çıxış edən edən B.Xəlilov dövlətin gücünü onun dil imkanları ilə eyniləşdirib. Azərbaycan dilinin ölkəmizdə yaşayan digər xalqları birləşdirdiyini, onların öz ana dillərində azad danışmalarına heç bir maneçilik törətmədiyini söyləyib.



Vebinar iştirakçıların müzakirələri ilə davam edib.

# Xocalı soyqırımı anılıb

Azərbaycan İlahiyyat İnstitutunda 25 fevral 2021-ci il tarixdə Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar videokonfrans keçirilib. Tədbirdə ərəb dilinə tərcümə edilmiş Səriyyə



Cəfərovanın "Onlar heç vaxt böyüməyəcəklər" kitabı da təqdim olunub.

Videokonfrans "ZOOM" proqramı vasitəsilə onlayn formatda təşkil olunub.

Açılış nitqi ilə iştirakçıları salamlayan AİI-nin rektoru Aqil Şirinov fevralın 25-dən 26-na keçən gecə dünyada görünməyən ən dəhşətli soyqırımılarından birinin yaşandığını, bu dəhşətli günlərdə Xocalı sakinlərinin qətlə yetirilmələrinin böyük faciə olduğunu qeyd edib.

Daha sonra rektor müəllifi Səriyyə Cəfərova olan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının AİI tərəfindən ərəb dilində çap olunmasından bəhs edib. Kitabın tərcümə olunub ərsəyə gəlməsində əziyyəti olan hər kəsə təşəkkürünü bildirən rektor, əsərin ərəb dünyasına çatdırılmasında işlər aparıldığını xüsusi vurğulayıb.

"Erməni təcavüzünün tanıdılması" İctimai Birliyinin sədri, Qarabağ veteranı, jurnalist Səriyyə Cəfərova tədbirdə çıxış edərək, faciənin sosial və siyasi aspektinin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, onların həyat hekayələrinin yer aldığı kitab haqqında ətraflı məlumat verib. Əsərin ərəb dilinə tərcümə olunmasına görə AİI-yə dərin minnətdarlığını bildirib.

Kitabı ərəb dilinə tərcümə edən AİI-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov Xocalı soyqırımı həqiqətlərinin dünyaya çatdırılmasında bu əsərin xususi əhəmiyyətini vurğulayıb. İ.Əlimuradov



Xocalı soyqırımında qətlə yetirilən uşaqların həyatından bəhs edən bu kitabı ərəb dilinə tərcümə edərkən yaşadığı mənəvi çətinliklərdən də söz açıb.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktrou Mehman İsmayılov çıxış edərək, Xocalı soyqırımı zamanı şəhid olanları ehtiramla yad edib. Kitabın böyük bir coğrafiyanı əhatə edən Ərəb dünyasında faciənin həqiqətlərinin çatdırılmasında böyük rol oynayacağına inandığını bildirib.

AİI İslamşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Rəşad Mustafa öz çıxışında Azərbaycan xalqına qarşı işğalçılıq və soyqırımı siyasətinin davamı olan Xocalı faciəsinin tarixi faktlarını xatırladıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladlarının Xocalıya hücumu zamanı xüsusi qəddarlıqla qətlə yetirdikləri azərbaycanlılar arasında çox sayda yaşlı, qadın və uşaqların olduğunu qeyd edib. O, həmçinin mülki əhalinin itkin düşdüyünü, əsir götürüldüyünü, ailələrin məhv edildiyini, həmin gün qəhrəmanlıq salnaməsinin yazıldığını qeyd edib.

*Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda ilk dərslər Xocalı soyqırımına həsr olunub.*

Azərbaycan İlahiyyat İnstitutunda fevralın 26-da Təhsil Nazirliyinin "Xocalı soyqırımının 29-cu ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən ilk dərslər Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunub.

Müəllimlər 29 il bundan əvvəl Xocalı sakinlərinə qarşı erməni silahlı birləşmələrinin və sovet ordusu tərəfindən törədilən faciənin dəhşətlərindən söz açıblar, Xocalı qurbanlarının xatirəsi yad edilib.

Dərslərdə Xocalı soyqırımı haqqında müxtəlif fotoşəkillər, məlumatlar, faciəni özündə əks etdirən sənədli filmlər nümayiş olunub.



# "İzahlı İslam fəlsəfəsi terminləri lüğəti" nəşr olunub




Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovun "İzahlı İslam fəlsəfəsi terminləri lüğəti" nəşr olunub.

Lüğətə müsəlman filosofları tərəfindən işlənib-hazırlanmış terminlərin müəyyən hissəsi, klassik müsəlman fəlsəfi əsərlərində xatırlanan yunan, romamənşəli filosofların ərəb dilində göstərilmiş adları daxil edilmişdir. Ümumilikdə, lüğətdə 443 sözün izahı verilib.

Kitabda Orta əsr müsəlman fəlsəfəsi, məntiqi, metafizika və psixologiyası, astronomiyasına aid terminlərin təkcə tərcüməsi deyil, həm də izahı verilib.

Lüğətdə terminlər ərəb əlifbasına uyğun sıralanmışdır. Məqsəd ərəbdilli mətnlərdə oxucunun qarşısına çıxan terminlərin lüğətdə asanlıqla tapılmasını təmin etməkdir. Əvvəlcə terminin ərəbcə yazılışı, sonra mötərizədə transkripsiyası, Azərbaycan dilindəki ekvivalenti, ərəbcə versiyasının dilimizin orfoqrafiya qaydalarına uyğun fonem transliterasiyası, hərfi mənası və nəhayət, izahı yer alır.

Lüğətin azərbaycandilli oxucu üçün əlçatanlığını təmin etmək məqsədilə kitabın sonunda terminlərin doğma dilimizdə indeks-siyahısı tərtib edilmişdir. Həmin indeks-siyahıya müraciət etməklə oxucu istənilən sözü, termini lüğətdə tapıb lazımi məlumatı əldə edə bilər.

Lüğətin təkcə müsəlman fəlsəfəsi deyil, həm də ilahiyyat, islamşünaslıq və dinşünaslıq mütəxəssisləri üçün faydalı olacağına inanırıq.

# «İntihar problemi və onunla mübarizə yolları» mövzusunda vebinar

Azərbaycan İlahiyyat İnstitutunda 1 mart 2021-ci il tarixdə İlahiyyat fakültəsinin tələbələri üçün "Rəhbərlik proqramı" çərçivəsində "İntihar problemi və onunla mübarizə yolları" mövzusunda vebinar keçirilib.

İlahiyyat fakültəsinin dekan müavini, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov məruzəsində ictimai mühitdə baş verən aqressiv hallar və bu aqressiyanın doğurduğu intihara münasibət, özünəqəsdin niyə və hansı səbəblərdən baş verdiyindən bəhs edib. Məruzəçi, həmçinin intiharı aradan qaldırmaq olarmı, yoxsa özünəqəsd bütün dönəmlərdə aktual problem olaraq qalacaq, din bu məsələyə necə yanaşır və digər mövzularla əlaqəli məsələlərə aydınlıq gətirib.

A.Qənbərov dinin insan həyatına xüsusi məna qazandırması, onun dünyagörüşünü formalaşdırması, eləcə də insanın yaşamında meydana gələn çətinliklər, faciəvi hallar və digər amillərə qarşı təsəlliedici amil kimi çıxış etməsindən bəhs edib. O, dinin mənəvi məhrumiyyətləri kompensasiya etməsi, insanı mənəvi böhranlara, depressiv hallara qarşı qoruyaraq həyata bağlamasına müsbət təsir göstərdiyini vurğulayıb.

Məruzəçi daha sonra bildirib ki, intiharın sosial səbəblərindən biri də anomiya halıdır. Yəni intihar həyatın mənası, məqsədilə bağlı dəyərlər sisteminin tənəzzül etməsi ilə əlaqəlidir: "Bu mənada, xüsusilə qeyd edilməlidir ki, dinin dünyagörüşü, təsəlliedici və kompensasiya funksiyaları intihara səbəb olan mənəvi böhranların aradan qaldırılmasında müstəsna rola malikdir".

Qeyd edək ki, Aİİ tələbələri üçün "Rəhbərlik proqramı" çərçivəsində müxtəlif mövzularda aylıq vebinarlar təşkil olunur.



# “Səmavi dinlərdə ailə və qadın” mövzusunda tədbir



Azərbaycan İlahiyyat İnstitutu Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 4 mart 2021-ci il tarixdə “Səmavi dinlərdə ailə və qadın” mövzusunda vebinar keçirilib.

“ZOOM” proqramı üzərindən təşkil olunan vebinarda AİI-nin müəllimləri və tələbələri iştirak ediblər.



AİI Tələbə Elmi Cəmiyyətinin sədri, Dillər və ictimai fənlər kafedrasının dosenti Məmmədəli Babaşlı giriş nitqi ilə çıxış edib. İştirakçıları salamladıqdan sonra, TEC-in fəaliyyəti barədə məlumat verib.

M.Babaşlı daha sonra mövcud pandemiya dövründə tələbələrin elmi dünyagörüşünün, intellektual səviyyələrinin artırılması, araşdırma aparmaları istiqamətində bu cür vebinarların davamlı olaraq keçiriləcəyini vurğulayıb.

Dillər və İctimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov “Səmavi dinlərdə ailə və qadın” mövzusunda təşkil olunan vebinarın gedişatı haqqında məlumat verib. İlahiyyat fakültəsinin tələbəsi Gülhanə Rüstəmova “İslamda qadın”, Mehrab Dəmirzadə “Həzrət Peyğəmbərin hədislərində qadın”, Sevil Hüseynova “İslam və Yəhudilikdə qadın”, Orxan Abışlı “Qurani-Kərimin qadına baxışı” mövzularında çıxış ediblər.

Tələbələr çıxışlarında İslamda qadınların hüquqlarından, Qurani-Kərimdə qadınlarla bağlı nazil olan ayələrdən, İslamın qadına verdiyi dəyərdən ətraflı danışıblar. Qadınların elm öyrənmələri, təhsil almaları barədə məsələlərə hədislərdən nümunələr gətirərək, günümüzdə onların cəmiyyətdə rolunu yüksək qiymətləndiriblər.

Vebinar iştirakçıların qarşılıqlı müzakirələri ilə davam edib.

TEC-in əsas məqsədi alitəhsilli mütəxəssis hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsidir. Həmçinin elmi-texniki potensialın qorunub-saxlanılması və təhsilalanların elmi tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında İnstitutun işinə kömək etmək TEC-in vəzifələrindən biridir.

Cəmiyyət tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliği, tədqiqatların aparılmasına gənclərin marağının artırılması, onlarda elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması, tədris materiallarının dərindən və mükəmməl mənimsənilməsinə köməklik göstərilməsi kimi məsələləri öhdəsinə götürür.

## Tələbə Elmi Cəmiyyəti vebinar keçirib

Azərbaycan İlahiyyat İnstitutunda 10 mart 2021-ci il tarixdə Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə vebinar keçirilib.

“ZOOM” proqramı üzərindən təşkil olunan vebinarda AİI-nin müəllimləri və tələbələri iştirak ediblər.

Tələbə Elmi Cəmiyyətinin sədri, Dillər və ictimai fənlər kafedrasının dosenti Məmmədəli Babaşlı giriş nitqi ilə çıxış edib. İştirakçıları salamladıqdan sonra TEC-in fəaliyyəti barədə məlumat verib.

Daha sonra M.Babaşlı mövcud pandemiya dövründə tələbələrin elmi dünyagörüşü, intellektual səviyyələrinin artırılması istiqamətində bu cür vebinarların davamlı olaraq keçiriləcəyini vurğulayıb.

Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov “Elm və elmi araşdırmanın metodologiyası” mövzusunda çıxış edib. Məruzəçi qeyd edib ki, belə vebinarlar tələbələrdə elmi yaradıcılığın müxtəlif formalarının təbliği, tədqiqatların aparılmasına gənclərin marağının artırılması, onlarda elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması, tədris materiallarının dərindən və mükəmməl mənimsənilməsinə köməklik göstərir.

Anar Qafarov çıxışı zamanı tələbələrdə müxtəlif elmi araşdırma qabiliyyətinin formalaşdırılması məqsədilə tədqiqatın ümumi strukturuna dair təsəvvürün yaranması, həmçinin sosial elmləri maraqlandıran məsələlərin tədqiqat obyektinə çevirilməsi baxımından bir sıra mətləblərə toxunub. O, elmi məqalənin yazılış forması, tədqiqatın strukturuna dair plan-prospektin hazırlanması, istinad qaydaları haqqında məlumat verib.

# Növbəti iclas keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda 5 mart 2021-ci il tarixdə növbəti iclas keçirilib. İclasda qış semestr imtahanlarının yekunları, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və pandemiya dövründə tədrisin məsafədən təşkili müzakirə olunub.

«ZOOM» proqramı vasitəsilə onlayn keçirilən iclasda İnstitutun rəhbər heyəti, müəllimlər və əməkdaşlar iştirak ediblər.

Rektor Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda şəhid olanlara Allahdan rəhmət, yaralı qazilərimizə isə şəfa diləyib.

Daha sonra o, qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə İnstitutun xanım kollektivinə səmimi arzularını ifadə edib.

A.Şirinov tədbirdə qış imtahan sessiyasının yekunları ilə bağlı məsələlərə də toxunub. Qeyd edib ki, 2020/2021-ci tədris ilinin yaz semestrinin dərsləri məsafədən onlayn formada keçirilməklə uğurla davam edir.

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Mübariz Camalov söz alaraq, pandemiya və müharibə dövrünə təsadüf edən payız semestrində tədrisin təşkili, keyfiyyəti və səmərəliliyindən bəhs edib.

M.Camalov daha sonra qış imtahanlarının keçirilməsi, qarşıya çıxan problemlər, imtahanların nəticələri haqqında məlumat verib.

Elm və innovasiyalar üzrə prorektor Mirniyaz Mürsəlov "İlahiyyat nəşrləri" adı altında ötən dövr ərzində ali təhsil müəssisəsinin müəllim və əməkdaşlarının əməyi sayəsində dərc olunan kitablardan danışıb. O, magistratura və doktorantura səviyyələrinə qəbulla bağlı məsələlərə də toxunub.

Daha sonra İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova çıxış edərək, qış imtahan sessiyasında tələbələrin kəmiyyət və keyfiyyət göstəricilərindən söz açıb.

İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov qış semestri boyu tələbələrin imtahanlarda müvəffəqiyyət göstəricilərindən, imtahan prosesinin şəffaf keçirilməsindən danışıb.

Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov çıxış edərək, pandemiya dövründə tədris prosesinin gedişatı, yaranan problemlər barədə məlumat verib. Kafedranın müəllim heyətinin sillabuslara uyğun surətdə yeni tədris semestrinə tam hazır olduğunu qeyd edib.



Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov söz alıb. Kafedra müdiri keçən semestrin göstəricilərinə toxunub, imtahanların nəticələrini uğurlu hesab etdiyini vurğulayıb. O, ərəb dili üzrə təşkil olunacaq əlavə kurs üçün səviyyə imtahanları barədə ətraflı məlumat verib.

İclas müzakirələrlə davam edib.



## «40 hədis» yarışması

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri arasında “40 hədis” yarışması keçirilib. Müsabiqə "ZOOM" platforması üzərindən təşkil olunub.

Yarışmanın münsiflər heyətində İlahiyyat fakültəsinin dekan müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Kövsər Tağıyev, müəllimlərdən – ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Namiq Abuzərov, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov təmsil olunublar.

Rektor, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, dərin dini və dünyəvi biliklərə, yüksək intellektə malik kadrların yetişdirilməsi İnstitutun qarşıya qoyduğu vəzifələrdəndir.

A.Şirinov vurğulayıb ki, belə yarışmalar gənclərin ümumi biliyini və dünyagörüşünü artırır, onlara öyrəndiklərini sərbəst ifadə etmək təcrübəsi qazanmağa imkan verir.

İnstitut rəhbəri daha sonra qeyd edib ki, fiqh, hədis, əqaid elmləri üzrə tələbələr arasında mütəmadi olaraq müsabiqələr təşkil ediləcək.

Müsabiqədə iştirak edən tələbələrə uğurlar arzulayan A.Şirinov vurğulayıb ki, hədislərin Qurani-Kərimdən sonra İslam dinində mənbə rolu oynayır. O, hədislərin öyrənilməsi, hifz olunması, gələcək nəsillərə çatdırılmasının dini baxımdan vacibliyini nəzərə çatdırıb.

Fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov söz alaraq, gənclərə müsabiqənin şərtləri haqqında ətraflı məlumat verib, yarışmanın Aİİ yaradıldığı gündən etibarən ənənəvi formada təşkil olunduğunu qeyd edib.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən olunub. Beləliklə, “40 hədis” yarışmasında birinci yerə Fərid Qasımzadə, ikinci yerə Peyman Xəlilov, üçüncü yerə isə Bəhruz Orucov layiq görülüblər.



Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb, iştirakçılara diplom və təşəkkürnamələr təqdim edilib.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsində tələbələrin dünyagörüşünün formalaşdırılması, intellektual səviyyələrinin, elmi biliklərinin artırılması, gələcəkdə mütəxəssis kimi yetişmələri üçün müxtəlif yarışmalar, müsabiqələr keçirilir.

## “İctimai həmrəyliyin möhkəmlənməsində bayramların rolu” mövzusunda vebinar

Azərbaycan İlahiyyat İnstitutunda 19 mart 2021-ci il tarixdə “İctimai həmrəyliyin möhkəmlənməsində bayramların rolu” mövzusunda vebinar keçirilib.

“ZOOM” platforması üzərindən təşkil olunan vebinarda Aİİ-nin rəhbər heyəti, müəllimləri və tələbələri iştirak ediblər.

AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov vebinar iştirakçılarını salamladıqdan sonra, qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. Rektor 44 günlük Vətən müharibəsində şəhid olanların xatirəsini yad edib, onlara Allahdan rəhmət diləyib.

Novruz bayramının pandemiya dövrünə təsadüf etdiyini vurğulayan rektor bayramlaşma zamanı xüsusi karantin rejiminin qaydalarına riayət etməyə səsləyib. O, həmçinin bayramların, xüsusən Novruz bayramının cəmiyyətdə birləşdirici funksiya icra etdiyini vurğulayıb.

“İctimai həmrəyliyin möhkəmlənməsində bayramların rolu” mövzusunda çıxış edən İslamşünaslıq kafedrasının dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibov müxtəlif səmavi dinlərdə qeyd olunan mərasimlər haqqında ətraflı məlumat verib. Bayramların milli və dini baxımdan funksiyalarına aydınlıq gətirib, onların əhəmiyyəti və cəmiyyətdə rolundan bəhs edib.



A.Həbibov daha sonra birlik və bərabərlik əsasında qurulmuş bütün bayramların öyrətmə, birləşdirmə, paylaşma, həmrəylik, səadət və xoşbəxtlik gətirən funksiyalarından ətraflı söz açıb.

Tədbir maraqlı müzakirələrlə davam edib.

# Azərbaycan İlahiyyat İnstitutunun rektoru Avropa Şurası İşçi qrupunun iclasında iştirak edib




Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov 18 mart 2021-ci il tarixdə Avropa Şurası İşçi qrupunun iclasında iştirak edib.

Tədbir "Bluejeans" platforması vasitəsilə onlayn formatda keçirilib.




Avropa Şurasının "Qeyri-ayrı-seçkilik, müxtəliflik və inklüzivlik" üzrə Rəhbər Komitəsi (Committee on Anti-Discrimination, Diversity and Inclusion) tərkibində "Mədəniyyətlərarası inteqrasiya" (Working Group on Intercultural Integration) İşçi qrupunun üçüncü görüşü 16-17 mart 2021-ci il tarixdə baş tutub. Görüşdə Azərbaycanı İşçi qrupun üzvü kimi, Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov təmsil edib.

Yığıncaqda Avropa Şurasının nümayəndələri İvana Delesandro (Ivana D`alessandro) və İrena Quydikova (Irena Guidikova), həmçinin 10 üzv ölkənin təmsilçiləri, 10 ölkənin məhəlli idarələrinin üzvləri və mədəniyyətlərarası inteqrasiya sahəsində mütəxəssislər olmaqla 38 nəfər iştirak edib.

Görüşün əvvəlində İşçi qrupun sədri Pia Buhl Girolami iştirakçıları üçüncü tədbirin proqramı ilə tanış edərək, sözü İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (the European Commission against Racism and Intolerance) sədri Maria Maroudaya vermişdir. M.Marouda çıxışında sivil cəmiyyətlərdə tolerantlığın və mədəniyyətlərarası inteqrasiyanın əhəmiyyətindən bəhs edib. Daha sonra onunla İşçi qrupun üzvləri arasında fikir mübadiləsi aparılıb.

Görüşdə müxtəlif layihələr üzrə müzakirələr baş tutub, Avropa Şurasının "Qeyri-ayrı-seçkilik, müxtəliflik və inklüzivlik" üzrə Rəhbər Komitəsinin sədri Triantafillos Loukarelis ilə İşçi qrupun üzvləri arasında dialoq keçirilib.

## "İslama görə qadının dəyəri" mövzusunda tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 30 mart 2021-ci il tarixdə "İslama görə qadının dəyəri" mövzusunda vebinar keçirilib.

"Microsoft Teams" proqramı üzərindən onlayn təşkil olunan tədbirdə Aİİ-nin müəllimləri, əməkdaşları və tələbələri iştirak ediblər.

İslamşünaslıq kafedrasının müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Əhmədzadə mövzu ətrafında məruzə ilə çıxış edib.

İslamın qadına verdiyi dəyərdən söz açan məruzəçi Qurani-Kərimdən və hədislərdən dəlillər gətirərək, mövzu haqqında danışıb. Məruzəçi qadınlara qarşı göstərilən zorakılıq hallarından bəhs edərək, Quranda belə hallara qarşı ayələrin mövcudluğunu nəzərə çatdırıb. Qeyd edib ki, İslam dini qadına qarşı zorakılığın bütün üsullarını qadağan edir. O, İslam dininin qadına hər zaman ehtiramla yanaşdığını və



ona böyük dəyər verdiyini vurğulayıb.

Vebinar mövzu ətrafında müzakirələrlə davam edib.

# 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü anılıb



Azərbaycan İlahiyyat İnstitutunda 31 mart 2021-ci il tarixdə Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib. Mərasim Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradovun moderatorluğu ilə ZOOM proqramı üzərindən təşkil olunub.

Rektor Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, 31 Mart soyqırımı qurbanlarını, həmçinin 44 günlük Vətən müharibəsində şəhid olanların xatirəsini yad edib, onlara Allahdan rəhmət diləyib. AİI rəhbəri qeyd edib ki, mənfur düşmənimiz fürsət tapdıqca xalqımıza qarşı amansız soyqırımı aktları törədib.

A.Şirinov vurğulayıb ki, mənfur düşmən xalqımıza qarşı soyqırımı törətmək üçün azərbaycanlıların yaşadıqları bölgələrə silahlı dəstələr yeridib. O, qeyd edib ki, xalqımıza qarşı tarixin müxtəlif vaxtla-



rında soyqırımı törədən daşnakların 1918-ci ilin 31 martında rəvac verdiyi təxribat aktı bunların ən dəhşətlisidir. Müxtəlif quberniyalarda törədilən soyqırımlar zamanı Bakıda Təzəpir məscidinə ziyan vurulub, Şamaxıda isə Qafqazın ən qədim ikinci məscidi olan Cümə məscidi orada toplaşan müsəlmanlarla birlikdə yandırılıb.

İnstitut rəhbəri daha sonra vurğulayıb ki, cənab Prezident İlham Əliyevin sərəncamı ilə bərpa olunan bu məscidi ziyarət zamanı yanıq izlərinə indi də rast gəlmək mümkündür.

A.Şirinov qeyd edib ki, Quba soyqırımı bu vandalizm aktlarının ən dəhşətlilərindən biridir. O, Quba Soyqırımı Memorial Kompleksinə AİI tələbələrinin ziyarətinin təşkil olunduğunu, qlobal pandemiya səbəbindən bu il ziyarətin təxirə salındığını mərasim iştirakçılarının nəzərinə çatdırıb.

Rektor soyqırımı qurbanlarının, şəhidlərimizin hazırda ruhlarının şad olduğunu da vurğulayıb. O bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə şücaətli Ordumuz torpaqlarımızı düşmən tapdağından azad edərək, işğalçıya layiq olduğu cavabı verib.

Quba Soyqırımı Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova xalqımıza qarşı törədilən soyqırımı aktı barədə söhbət açıb. O, rəhbərlik etdiyi Soyqırımı Memorial Kompleksi barədə geniş məlumat verib. Bildirib ki, 30 dekabr 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Sərəncam imzalayıb.



(Ardı 20-ci səhifədə)

# 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü anılıb

(Əvvəli 19-cu səhifədə)

R.Bayramova bildirib ki, 2013-cü il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva Quba Soyqırımı Memorial Kompleksinin açılışını ediblər.

O, daha sonra qeyd edib ki, Quba şəhərində Soyqırımı Memorial Kompleksi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar neçə müddətdir fəaliyyətini onlayn formada həyata keçirir. Kompleksin direktoru bu müddət ərzində mütəmadi olaraq rəsmi sayt, eləcə də müxtəlif sosial şəbəkələr vasitəsilə 4 dildə (Azərbaycan, ingilis, rus və ərəb) fərqli illərdə xalqımıza qarşı törədilmiş soyqırımı gerçəkliklərini, erməni vandalizminin əsl simasını, ermənilərin mənfur planlarının tarixi köklərini, Qafqaza köçürülmələri ilə bağlı müxtəlif arxiv sənədlərini, eləcə də fotoşəkilləri, deportasiyalar barədə məlumatları təqdim etdiklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan xalqına qarşı soyqırımları tarixi şöbəsinin aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə 1918-ci ilin iyul ayında yaradılmış Fövqəladə Təhqiqat Komissiyası ermənilərin 1918-ci ildə Azərbaycanın əksər bölgələrində azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınları, zorakılıqları və talanları çoxsaylı şahid ifadələri və maddi sübutlar vasitəsilə aşkarlayıb üzə çıxarıb. Bu araşdırma zamanı erməni cinayətkarlığını üzə çıxaran 3 cilddən ibarət 145 vərəq tərtib olunub. Qırğınla bağlı Dövlət Arxivində saxlanılan Fövqəladə Təhqiqat Komissiyasının çoxsaylı sənədləri qalır ki, onların da bir hissəsi artıq çap olunub.



Vaqif Abışov ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanından, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 yanvar 2018-ci il "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamından bəhs edərək, həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətlərə hüquqi-siyasi qiymət verilməsi, bu vandalizm aktlarının beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün bütün vasitələrdən istifadə etdiklərini vurğulayıb.

Tədbirdə Quba Soyqırımı Memorial Kompleksi haqqında iki sənədli film təqdim olunub.

# "Biblioterapiya: kitabla müalicə" mövzusunda vebinar

Azərbaycan İlahiyyat İnstitutunda 1 aprel 2021-ci il tarixdə İlahiyyat fakültəsinin tələbələri üçün "Rəhbərlik proqramı" çərçivəsində "Biblioterapiya: kitabla müalicə" mövzusunda vebinar keçirilib.

"Microsoft Teams" proqramı üzərindən təşkil olunan vebinarda Aİİ-nin müəllimləri və tələbələri iştirak ediblər.

İlahiyyat fakültəsinin dekan müavini, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov tədbiri giriş sözü ilə açaraq, "Rəhbərlik proqramı" çərçivəsində hər ay keçirilən vebinarların əhəmiyyətindən bəhs edib.

Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov "Biblioterapiya: kitabla müalicə" mövzusunda çıxış edib. E.Məmmədov biblioterapiya, onun tarixi və tətbiqi yolları barədə danışıb.

Daha sonra İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova çıxış edərək vebinarın əhəmiyyətini vurğulayıb, kitab vasitəsilə tərbiyə və müalicə olunmağın əhəmiyyətindən söz açıb. Elnurə Əzizova qısa zaman ərzində İnstitutun müəllimləri tərəfindən "Oxunması vacib olan 100 kitab" siyahısının hazırlanaraq, İlahiyyat fakültəsi tələbələrinə təqdim edilməsi barədə təkliflə çıxış edib.

Vebinar tələbə və müəllimlərin mövzu ətrafında sualları və müzakirəsi ilə davam edib.

Qeyd edək ki, Aİİ tələbələri üçün "Rəhbərlik proqramı" çərçivəsində müxtəlif mövzularda aylıq vebinarlar təşkil olunur.

# Elm Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 2 aprel 2021-ci tarixdə Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Elm Gününə həsr olunmuş onlayn tədbir keçirilib.

Yığıncağı giriş nitqi ilə açan Aİİ Tələbə Elmi Cəmiyyətinin sədri, Dillər və ictimai fənlər kafedrasının dosenti Məmmədəli Babaşlı vebinarın Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik və maarifçilik fəaliyyətinə həsr olunduğunu bildirib.

XIX əsrin sonu – XX əsrin əvvəllərində mövcud sosial, iqtisadi həyatdan bəhs edən M.Babaşlı H.Z.Tağıyev kimi din xadimlərimizin və ziyalılarımızın birlikdə fəaliyyətindən danışıb. Bu dövrün özünüdərketmə, milli oyanış baxımından Azərbaycan tarixində parlaq bir səhifəni özündə əks etdirdiyini vurğulayıb.

Daha sonra Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyəti haqqında geniş məlumat verib. Qeyd edib ki, ölümündən 100 ilə yaxın müddət keçməsinə baxmayaraq, H.Z.Tağıyev xalqımız tərəfindən daim xatırlanır, həyatı və fəaliyyəti haqqında mütəmadi olaraq araşdırmalar aparılır.

F.Cabbarov vurğulayıb ki, H.Z.Tağıyevin təhsili olmasa da, o, elmə və maarifə daha çox önəm verirdi.

Mesenatın xeyriyyəçilik fəaliyyətinə stimul verən səbəbləri sadalayan məruzəçi H.Z.Tağıyevin həddən artıq inanclı olduğunu və sosial məsuliyyəti dərk etdiyini başlıca səbəb kimi qeyd edib. O, həmçinin Şərqdə ilk dünyəvi Qız Məktəbinin açılmasından, “Həyat” qəzetinin çap olunmasından da söhbət açıb.







F.Cabbarov bu gün də xeyriyyəçilik ənənələrinin davam etdiyini vurğulayıb. Bildirib ki, buna ən böyük nümunə 44 günlük Vətən müharibəsində sosial vəziyyətindən asılı olmayaraq, hər kəsin cəbhəyə yardım etməsi idi.

Vebinar mövzu ətrafında müzakirələrlə davam edib.

# "Özgüvənsizlik və onunla mübarizə yolları" mövzusunda vebinar



Azərbaycan İlahiyyat İnstitutunda 8 aprel 2021-ci il tarixdə “Özgüvənsizlik və onunla mübarizə yolları” mövzusunda vebinar keçirilib.

“Microsoft Teams” proqramı vasitəsilə keçirilən vebinarda İnstitutun əməkdaşları və tələbələr iştirak ediblər.

Psixoloq İlkin Kazımlının təqdimatında baş tutan vebinarda özgüvənsizlik duyğusu, natamamlıq kompleksi, onunla mübarizə yolları barədə məlumat verilib. Psixoloq qeyd edib ki, hər şeydən öncə özgüvən hissini formalaşdırmaq lazımdır. Komplekslərin yaranmasının kökündə bu və ya digər səbəblərdən qaynaqlanan özgüvənsizlik və ya özgüvən hissinin aşağı olmasıdır. O, özgüvənsiz insanların hər zaman özlərindən narazı, həssaslığa meyilli olduqlarını bildirib.

Psixoloq daha sonra tələbələri bu kompleksləri aradan qaldırma yolları barədə məlumatlandırıb. Onlara bir çox suallar verməklə, problemlərini aydınlaşdırmağa çalışıb.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda tələbələrin psixoloqla mütəmadi olaraq görüşləri təşkil olunur. Hazırda bu proqramlar pandemiya dövrü ilə bağlı olaraq onlayn formatda davam edir.

## AİI rektoru İslam sivilizasiyası alimlərinin tədbirində iştirak edib




Azərbaycan İlahiyyat İnstitutunun rektoru 9 aprel 2021-ci il tarixdə İslam sivilizasiyası alimlərinin tədbirində iştirak edib.

Malayziyanın İslam Hadrari İnstitutu, Kebangsaa Universiteti və Özbəkistanın İslam Sivilizasiyası Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan tədbir onlayn formatda keçirilib.



Malayziya və Özbəkistanın, o cümlədən digər ölkə universitet və tədqiqat təşkilatlarının alimlərinin iştirak etdikləri beynəlxalq tədbirdə İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Orta Asiyanın İslam fəlsəfi düşüncəsinə töhfəsi: Mərv məktəbi" mövzusunda çıxış edib.

A.Şirinov Mərv məktəbi haqqında məlumat verərək, onun İslam dünyasında fəlsəfi düşüncənin təşəkkülünə bəxş etdiyi töhfələrdən söz açıb. Həmçinin bu məktəbin peripatetik fəlsəfənin yayılmasındakı rolundan bəhs edib, sözügedən fəlsəfə məktəbinin təmsilçiləri barədə ətraflı məlumat verib.

Qeyd edək ki, beynəlxalq tədbirin təşkil olunmasında məqsəd İslam sivilizasiyası alimlərini bir yerə toplamaq, onların elmi tədqiqat işlərinin müzakirəsini təşkil etməkdir.

## "İslah və təcdid" kitabının təqdimatı




Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 13 aprel 2021-ci il tarixdə "İslah və təcdid" seriyasından olan kitabların təqdimat mərasimində iştirak edib.

Sankt-Peterburq Dövlət Universitetinin İslam Araşdırmaları Mərkəzi və Moskva İslam İnstitutunun birgə layihələri olan kitabların təqdimat mərasiminə rektor onlayn formatda qoşulub.

Mərasimdə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdin açılış nitqi ilə çıxış edib.

Şeyx Ravil Qaynutdin qarşıdan gələn ramazan ayının başlanması münasibətilə bütün müsəlman aləmini təbrik edib. "İslah və təcdid" seriyasından olan bu dəyərli nümunənin İslam aləminə böyük töhfə verəcəyini vurğulayıb, layihə iştirakçılarına, redaksiya heyətinə, kitabın nəşr olunmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

AİI rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, XX əsrin II yarısından etibarən dində yenilənmə düşüncəsinin daha fərqli istiqamətlərə yönəldiyini nəzərə çatdırıb. İnstitut rəhbəri dini mətnlərin tarixiliyi, din və modernizm, dini təcrübənin mahiyyəti, Quran qissələrinin tarixi gerçəkliyi ifadə edib-etmədiyi, İslam hüququnun universal xarakterə malik olub-olmadığı kimi məsələlərin sözügedən dövrdən etibarən müzakirə obyektinə çevrildiyini vurğulayıb.

Rektor sözügedən seriyanın son üç əsr ərzində İslam reformasiya düşüncəsinin ən öndəgələn nümayəndələri haqqında məlumatları əhatə edən kitablarının nəşr edilməsini təqdirəlayiq hal kimi qiymətləndirib. Bu layihənin İslam düşüncəsi baxımından əhəmiyyətli olacağını qeyd edib və dəvət üçün səmimi təşəkkürünü bildirib.

Tədbirdə, həmçinin Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov, Sankt-Peterburq Dövlət Universitetinin rektoru Nikolay Kropaçev, Rusiyanın Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajının direktoru Mixail Piotrovskiy, Kazan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun direktoru Ramil Xayrutdinov da çıxış ediblər.

Qeyd edək ki, "İslah və təcdid" seriyasından olan kitab layihəsi 33 əsərdən ibarətdir. Seriya XIX-XXI əsrləri əhatə edən İslam reformasiya düşüncəsinin nümayəndələri haqqında kitablardan ibarətdir.

# Təhsil eksperti ilə görüş

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 26 aprel 2021-ci il tarixdə təhsil eksperti Kamran Əsədovla görüşüb.

Aİİ rəhbəri ali təhsil müəssisəsinin fəaliyyəti barədə geniş məlumat verib. Qeyd edib ki, İnstitutda yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə ərəb və ingilis dillərində sərbəst mühazirə deyə biləcək mütəxəssislər mövcuddur.

O, daha sonra bildirib ki, tələbələrə mükəmməl dini və dünyəvi biliklərin aşılanması üçün dərslərdən əlavə, ali təhsil müəssisəsində ödənişsiz dil kursları da fəaliyyət göstərir.

Rektor, həmçinin İnstitutun nəşrləri barədə məlumat verərək, Aİİ-nin elmi fəaliyyətinin əsas göstəricisi olan "Din araşdırmaları" jurnalının gələcəkdə beynəlxalq indeksli jurnallar sırasına daxil ediləcəyi istiqamətində çalışıldığını vurğulayıb.

Təhsil eksperti Kamran Əsədov mövhumat və xurafatla mübarizədə, həmçinin dinin düzgün şəkildə cəmiyyətə çatdırılmasında Azərbaycan İlahiyyat İnstitutunun yetişdirdiyi tələbələrin üzərinə böyük vəzifələr düşdüyünü bildirib.



Görüşdə, həm də Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin direktoru və "təhsil.biz" saytının təsisçisi kimi çıxış edən Kamran Əsədov ali müəssisəsi ilə əməkdaşlıq əlaqələrinin qurulması, fəaliyyətinin işıqlandırılması istiqamətlərində birgə fəaliyyət məsələləri haqqında bəhs edib.

Tədbirdə Azərbaycanda dini durum və təhsil sahəsində mövcud vəziyyət, planlar, perspektivlər mövzusunda müzakirələr aparılıb.

# Elmi məqalə "Bilimname" dərgisində dərc olunub

Azərbaycan İlahiyyat İnstitutu dekanının elmi məqaləsi impakt faktorlu "Bilimname" jurnalında dərc olunub.

Aİİ İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizovanın "Kisra sarayından Kərbəla səhrasına: milli-dini kimlik ünsürü və tarixi-mənqibəvi şəxsiyyət arasında məqtəllərdə Şəhrbanu" başlıqlı məqaləsi Türkiyənin Erciyes Universitetinin "Bilimname" jurnalında dərc olunub.

Məqalədə Sasani hökmdarı III Yezdəgirdin (632-651) qızı olduğu iddia edilən Şəhrbanu haqqında klassik İslam tarixi mənbələrindəki məlumatlar tədqiq edilərək, onların ərəbdilli, farsdilli və türkdilli məqtəllərə təsiri araşdırılıb.

Qeyd edək ki, sosial elmlərə dair məqalələrin dərc olunduğu "Bilimname" jurnalı "Web of science" beynəlxalq bazasında referatlaşdırılıb.

Sözügedən məqalə dosent E.Əzizovanın Aİİ-dəki fəaliyyəti müddətində "Web of science" beynəlxalq bazalarında referatlaşdırılan jurnallarda dərc olunmuş dördüncü yazı nümunəsidir. Araşdırma ilə qeyd edilən linkdən (https://dergipark.org.tr/tr/pub/bilimname/issue/62019/854461) tanış olmaq mümkündür.

Aİİ ilahiyyat elmləri sahəsində tədqiqatların aparılması məsələsinə xüsusi önəm verir. Belə ki, ali təhsil müəssisəsində tədris prosesinə cəlb edilən müəllimlər




dünyanın müxtəlif ölkələrində təşkil olunan beynəlxalq konfranslarda iştirak edir, tədqiqat sahələrinə uyğun gələn elmi məqalələrin, kitab və dərsliklərin nəşrini həyata keçirirlər.

# ELMİ SEMİNARIN İLK İCLASLARI KEÇİRİLİB

Azərbaycan İlahiyyat İnstitutunda 28 aprel 2021-ci il tarixdə "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi" ixtisasları üzrə yaradılmış Birdəfəlik dissertasiya şurasının tərkibində elmi seminarın ilk iclasları təşkil olunub. "Dinşünaslıq" ixtisası üzrə doktorant Aliyə Samir qızı Mürsəlovanın "İslamda vərəsəlik hüququ (hənəfi məzhəbi əsasında)"; dissertant Dürdanə Şükür qızı Cəfərlinin "Müasir islamşünaslıqda "həqiqi İslam" konsepsiyası" mövzularında seminarları onlayn formatda baş tutub.

Elmi seminar öz fəaliyyətini Ali Attestasiya Komissiyası (AAK) Rəyasət Heyətinin 29.01.2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə dissertasiya şuralarının nəzdində fəaliyyət göstərən elmi seminarlarda müzakirələrin təşkili və keçirilməsinə dair qaydaları"na uyğun olaraq distant formada onlayn şəkildə təşkil edir.

AİÍ-də Birdəfəlik dissertasiya şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələrin verilməsi qaydası haqqında Əsasnamə"nin 4.9-cu bəndinə əsasən, "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndi və 4.8-ci bəndinə uyğun olaraq yaradılıb.













# "Orucluğun tarixi və Ramazanın fəzilətləri" mövzusunda vebinar

Azərbaycan İlahiyyat İnstitutunda 7 may 2021-ci il tarixdə "Orucluğun tarixi və Ramazanın fəzilətləri" mövzusunda vebinar keçirilib.

"ZOOM" platforması üzərindən təşkil olunan vebinarda AİÍ-nin rəhbər heyəti, müəllimləri və tələbələri iştirak ediblər.

Rektor, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov vebinar iştirakçılarını salamladıqdan sonra, qarşıdan gələn Müqəddəs Ramazan bayramı münasibətilə təbriklərini bildirib.

İnstitut rəhbəri 44 günlük Vətən müharibəsində şəhid olanların xatirəsini yad edib, onlara Allahdan rəhmət diləyib.

Ramazan bayramının pandemiya dövrünə təsadüf etdiyini vurğulayan AİÍ rəhbəri bayramlaşma zamanı xüsusi karantin rejimi qaydalarına riayət etməyi vurğulayıb.

İnsanın nəfsi ilə mübarizə aparmasında bu ayın bir məqam olduğunu bildirən A.Şirinov Ramazan günlərinin forma və məzmun baxımından xüsusi önəmini diqqətə çatdırıb.

"Orucluğun tarixi və Ramazanın fəzilətləri" mövzusunda çıxış edən AİÍ İslamşünaslıq kafedrasının müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru İbrahim Quliyev hədis mənbələrinə əsaslanaraq, orucluğun tarixi, məna çalarları, faydaları barədə ətraflı söz açıb. Qurani-Kərimin nazil olduğu ayın fəzilətlərindən ətraflı bəhs edən İ.Quliyev oruc tutmağın tibbi, ictimai faydalarını da vurğulayıb.

Vebinar müzakirələr və tələbələri maraqlandıran sualların cavablandırılması ilə davam edib.



# "Ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafı naminə xidmətləri" mövzusunda videokonfrans

Azərbaycan İlahiyyat İnstitutunda 8 may 2021-ci il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafı naminə xidmətləri" mövzusunda videokonfrans keçirilib.

"ZOOM" proqramı üzərindən təşkil olunan vebinarda AİI-nin müəllimləri və tələbələri iştirak ediblər.

AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbirdə çıxış edərək, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən milli-mənəvi və dini dəyərlərimizin qorunması istiqamətində uzaqgörən addımlar atdığını bildirib. Ölkəmiz müstəqillik qazandığı ilk illərdən tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı, o cümlədən yeni dini ibadətgahların inşası, mövcud olanların əsaslı təmiri və yenidənbərpası istiqamətində çoxsaylı işlərin görüldüyünü vurğulayıb.

İnstitut rəhbəri daha sonra qeyd edib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində keçirdiyi mühüm islahatların davamı olaraq, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin layiqli siyasət yürütməsi nəticəsində 44 günlük Vətən Müharibəsində qalib gəldik. Müzəffər Ordumuz hazırda mədəniyyət paytaxtımız elan olunan Şuşanı işğalçılardan azad etdi.



AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov çıxış edərək, Heydər Əliyevin sovet dövrü və müstəqillik illərindəki xidmətləri barədə arxiv sənədlərinə istinadən məlumat verib. Ulu Öndərin hakimiyyəti illərində qarşılaşdığı çətinliklərə toxunaraq, əzmlə və səbirlə apardığı siyasətin hazırda cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğulayıb. Heydər Əliyevin hakimiyyəti dövründə xarici ölkələrlə qurulan diplomatik münasibətlərin bu gün də dövlətçilik siyasətində müsbət istiqamətdə təsirini diqqətə çatdıran C.Bəhramov Ümummilli Liderin siyasi və dövlətçilik irsi ilə bağlı daim araşdırmalar aparıldığını vurğulayıb.




Videokonfransdan sonra AİI-nin rəhbər heyəti və əməkdaşları Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla yad edib, məzarı üzərinə gül dəstələri qoyublar.

## «Azərbaycanda İslam mədəniyyətinin təşəkkül tarixi» mövzusunda vebinar



Azərbaycan İlahiyyat İnstitutunda 16 may 2021-ci il tarixdə İlahiyyat fakültəsinin tələbələri üçün "Rəhbərlik proqramı" çərçivəsində "Azərbaycanda İslam mədəniyyətinin təşəkkül tarixi" mövzusunda vebinar keçirilib.

"Microsoft Teams" proqramı üzərindən təşkil olunan tədbirdə Aİİ-nin müəllimləri və tələbələri iştirak ediblər.

İlahiyyat fakültəsinin dekan müavini, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov tədbiri giriş sözü ilə açaraq, "Rəhbərlik proqramı" çərçivəsində hər ay keçirilən vebinarların əhəmiyyətindən bəhs edib. A.Qənbərov tarix elminin yenidəndirçəliş dövrünü yaşadığını vurğulayaraq, mövzunun əhəmiyyətinə toxunub.

İslamşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Rəşad Mustafa "Azərbaycanda İslam mədəniyyətinin təşəkkül tarixi" mövzusunda çıxış edib. İslam dini ilə birlikdə bəşər tarixində yeni mərhələnin başlandığını qeyd edən R.Mustafa erkən fütuhat, xəlifəlik zamanı baş verən hadisələr haqqında geniş məlumat verib, İslam dininin Azərbaycanda yayılmasından sonra ölkəmiz üçün nəticələrindən bəhs edib.

Vebinar tələbə və müəllimlərin mövzu ətrafında sualları və müzakirələri ilə davam edib.

Aİİ tələbələri üçün İlahiyyat fakültəsinin dekanlığı tərəfindən "Rəhbərlik proqramı" çərçivəsində müxtəlif mövzularda aylıq vebinarlar təşkil olunur.

## "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri" mövzusunda konfrans materialları çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutu, Bakı Yunus Əmrə İnstitutu, Kırıkkale Universiteti, Professor Fuat Sezgin İslam Elm Tarixi Araşdırmaları Fondunun birgə təşkilatçılığı ilə 18 may 2021-ci il tarixdə "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri" mövzusunda keçirilmiş konfransın materialları dərc edilib.

Topluda hər iki ölkəni təmsil edən konfrans iştirakçılarının 14 məqaləsi və çıxışları yer alıb.

Kitabda Azərbaycan İlahiyyat İnstitutunun rektoru, i.f.d. Aqil Şirinovun, Kırıkkale Universitetinin rektoru, prof. dr. Erslan Aslanın, Professor Fuat Sezgin İslam Elm Tarixi Araşdırmaları Fondunun sədri Mecit Çetinkayanın, həmçinin Aİİ-nin əməkdaşları – Dinşünaslıq kafedrasının müdiri, f.f.d., dos. Anar Qafarovun, f.f.d., dos. Ələddin Məlikovun, dekan müavini, f.f.d. Kövsər Tağıyevin və digər elm adamlarının məqalələri, çıxışları dərc olunub.

Konfransa qatılan məruzəçilər müsəlman alimlərinin elm və texnologiyaya verdikləri töhfələri araşdırmış, alim və mütəxəssislərin tədqiqat işləri ilə bağlı çıxışlar etmişlər.

Topluda yalnız elmi məqalələr deyil, həmçinin konfransdakı çıxışlar da yer alıb.

## "Bədii əsər oxuma (xarici ədəbiyyat)" mövzusunda müsabiqə

Azərbaycan İlahiyyat İnstitutunda 24 may 2021-ci il tarixdə "Bədii əsər oxuma (xarici ədəbiyyat)" mövzusunda müsabiqə keçirilib. "ZOOM" proqramı vasitəsilə onlayn formatda təşkil olunan müsabiqədə Aİİ-nin tələbələri iştirak ediblər.

Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov bu səpkili müsabiqələrin tələbələrin elmə, maarifləndirici yarışmalara maraqlarının, həmçinin ümumi biliklərinin və dünyagörüşlərinin artırılmasının, vətənpərvərlik duyğularının yüksəldilməsinin, əxz etdiklərini daha çevik şəkildə ifadə etmək baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb, təhsilalanlara uğurlar diləyib.

Üç turdan ibarət olan müsabiqədə, ümumilikdə, 45 sual səsləndirilib. Suallar dahi Amerika yazıçısı, 1954-cü ildə ədəbiyyat üzrə Nobel mükafatı laureatı olmuş Ernest Heminqueyin məşhur "Əcəl zəngi" romanı, "Qoca və dəniz" povesti və hekayələrinin daxil edildiyi "Seçilmiş əsərləri"nə dair olub. Belə ki, ədəbiyyat seçmələri əvvəlcədən tələbələrə təqdim olunub və suallar sözügedən əsərlərdə yer almış nümunələrə uyğun hazırlanıb.

Müsabiqənin sonunda turlar üzrə qazanılmış ümumi ballar əsasında qaliblər müəyyən edilib, mükafatlandırılıb və onlara diplomlar təqdim olunub.

Azərbaycan İlahiyyat İnstitutunda pandemiya dövründə də tələbələrin dünyagörüşlərinin artırılması, mütaliə vərdişlərinin və nitq qabiliyyətlərinin formalaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

# 28 MAY - RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ VİDEOKONFRANS

Azərbaycan İlahiyyat İnstitutunda 26 may 2021-ci il tarixdə 28 May - Respublika Gününə həsr olunmuş videokonfrans keçirilib.

"ZOOM" proqramı üzərindən təşkil olunan videokonfransda AİI-nin əməkdaşları və tələbələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rektor Aqil Şirinov videokonfrans iştirakçılarını salamladıqdan sonra, Respublika Günü münasibətilə təbriklərini bildirib. Rektor bugünün önəmini diqqətə çatdıraraq, uzun illər Çar Rusiyasının əsarətində qalmış, məhrumiyyətlər yaşamış Azərbaycan xalqının, nəhayət, 1918-ci ildə qazandığı müstəqilliyinin çətinliklərlə başa gəldiyini vurğulayıb.

AİI rəhbəri daha sonra bildirib ki, həmin dövrdə və belə bir şəraitdə Cümhuriyyətin elan olunması və dünyaya tanıdılması istiqamətində Azərbaycan ziyalıları, ideoloqları gərgin mübarizə nəticəsində əllərindən gələni əsirgəməyərək, bu müqəddəs vəzifəni yerinə yetirməyi bacarıblar.



Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov tədbir iştirakçılarını salamladıqdan sonra, Respublika Günü münasibətilə təbrikərini çatdırıb. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranma tarixi və keçdiyi yol haqqında ətraflı məlumat verən A. İsgəndərov 28 may 1918-ci ildə elan olunan bugünün tariximizin ən şərəfli səhifəsi olduğunu vurğulayıb. Həmin dövrdə baş verən hadisələri xronoloji ardıcıllıqla qeyd edərək, Xalq Cümhuriyyətinin az yaşamasına baxmayaraq, xalqımızda azadlıq və müstəqillik fikirlərinin formalaşmasında müstəsna rolunu nəzərə çatdırıb.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra Cümhuriyyət tarixinin araşdırılmağa başlandığını və bu istiqamətdə ümummilli lider Heydər Əliyevin müstəsna qərarlarını diqqətə çatdıran professor hazırda sözügedən siyasətin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin tariximiz üçün əhəmiyyətini vurğulayıb.

Videokonfrans tədbir iştirakçılarının qarşılıqlı müzakirəsi ilə davam edib.

## "İlahiyyat" elmi-publisistik jurnalının növbəti sayı dərc olunub

Azərbaycan İlahiyyat İnstitutunun "İlahiyyat" elmi-publisistik jurnalının növbəti – 4-cü sayı çapdan çıxıb.

Doqquz rubrikadan ibarət jurnalda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin AİI-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın budəfəki sayı "Rəsmi guşə" rubrikası ilə başlayır.

Dərginin "Cəmiyyət və din" rubrikasında "Nəsirəddin Tusinin varlıq və Tanrıya dair fikirləri"; "Quran və hədislər kontekstində zülm"; "Dönüklərin cəzalandırılması baxımından İslamda etiqad azadlığı haqqında"; "Dini sabitliyə zəmin olaraq sosial-iqtisadi rifah"; "Din və dövlətçilik"; "Səmavi dinlərdə qadın" və "Dindəki qadağaların mahiyyəti" adlı məqalələr dərc olunub.

"Mühyiddin ibn Ərəbi (Nəzəri irfanın banisi)"; "Nizami Gəncəvinin yaradıcılığı "Xosrov və Şirin" poemasının nümunəsində" və "Muxtar Əfəndizadənin "Şərayiül-İslam" əsəri haqqında" başlıqlı məqalələr jurnalın "Mütəfəkkirlər" rubrikasında yer alıb.

"Müasir müəllimin fəaliyyətində yaradıcılıq amili"; "XX əsrdə din və maarifçilik" və "Əndəlüsdə elm və onun Avropaya təsiri" adlı məqalələr "Tədris" rubrikasında nəşr edilib.

"Qırmızı terrorun, erməni məkrinin qurbanı olmuş elmi-mədəni və milli-mənəvi irsimiz", "Xarizma nədir və Həzrət Peyğəmbərin xarizmasının bədəvilər üzərindəki təsirləri" mövzusunda yazılar "Baxış bucağı" rubrikasında yerləşdirilib.

"Vətənpərvərlik" rubrikasında "Qarabağ Azərbaycanın tərkib hissəsidir" və "Xocalım, qan yaddaşım, səni unutmayacaq bu xalq" məqalələri dərc olunub.

"Dəyərlərimiz" rubrikasında "Ramazan ayı ərəfəsində"; "Xıdır Nəbi baramı"; "Bir peyğəmbər adəti: hədyyələşmək"; "Bir milləti və fərdi var edən dəyərlərdirmi? (Tarixə nəzəri baxış)"; "İctimai həmrəyliyin möhkəmləndirilməsində bayramların rolu"; "Oruc ibadətinin hikməti və mənəvi faydaları; "Günahları yandıran Ramazan"; "Qurani-Kərimdə peyğəmbərlik" başlıqlı məqalələr yer alıb.

"Araşdırma" rubrikasında isə "Qafqaz və Afurca seyidləri; "Qarabağda mövcud olan Alban məbədləri" sərlövhəli yazılar dərc olunub.

Jurnalın sonuncu – "Ədəbiyyat" rubrikasında "Necə oldu ki, Oksforda girə bilmədim" başlıqlı dilimizə tərcümə edilmiş hekayə, "Müqəddəs Kitab" mövzusunda məqalə verilib.

# “Dini-irfani və fəlsəfi kontekstdə Nizami Gəncəvi yaradıcılığı” mövzusunda respublika elmi konfransı



Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq, Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə 21 may 2021-ci il tarixdə “Dini-irfani və fəlsəfi kontekstdə Nizami Gəncəvi yaradıcılığı” mövzusunda respublika elmi konfransı keçirilib.



“ZOOM” proqramı vasitəsilə onlayn formada təşkil olunan konfransda ölkənin müxtəlif ali təhsil müəssisələrinin, elmi qurumlarının alimləri iştirak ediblər.

Konfransın moderatoru – Aİİ Dillər və ictimai fənlər kafedrasının müdiri, f.f.d., dos. İlkin Əlimuradov konfrans iştirakçılarını salamladıqdan sonra, açılış nitqi üçün sözü Azərbaycan İlahiyyat İnstitutunun rektoru, i.f.d. Aqil Şirinova verdi.

Rektor Aqil Şirinov konfrans iştirakçılarını salamladıqdan sonra, tədbirin ilahiyyat elminə töhfəsi baxımından önəmini diqqətə çatdırdı. Nizami Gəncəvi irsi haqqında yalnız Azərbaycan dilində deyil, həmçinin qərbdilli məqalələrə də rast gəlindiyini vurğulayan rektor onun irfan dünyasında tutduğu yeri vurğulayaraq, əsərlərindən nümunələr gətirib, tolerantlıq münasibətlərinin ədibin bədii nümunələrində necə əks olunduğundan söz açdı. Həmçinin Nizami Gəncəvinin bir çox elmlərdən xəbərdar olan görkəmli filosof, mütəfəkkir kimi şöhrət tapdığını qeyd etdi. Rektor çıxışının sonunda N.Gəncəvi yaradıcılığını İslam renessansının ən böyük töhfələrindən biri kimi qiymətləndirib, konfransın fəaliyyətində uğurlar dilədi.



Daha sonra məruzə etmək üçün söz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş icraçı direktoru Elnur Əliyevə verildi. E.Əliyev konfrans iştirakçılarını salamladıqdan sonra, ötən gün Prezident İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq perspektivləri” mövzusunda müzakirələrin önəmindən bəhs etdi. Nizami Gəncəvi yaradıcılığının sivilizasiyalararası körpü rolunu oynadığını vurğulayan məruzəçi ədibin qoyub-getdiyi irsin bu gün də aktual olduğunu qeyd etdi. Nizami Gəncəvinin insanpərvər, ideal müsəlman olduğunu diqqətə çatdıraraq, məsələlərə ümumbəşəri kontekstdən yanaşdığını bildirdi.

E.Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin belə təkrarsız şəxsiyyəti tanıtmaq, dünya ictimaiyyətinə çatdırmaq üçün dövlət tərəfindən göstərilən dəstəyi xüsusi vurğulayaraq, 2021-ci ilin “Nizami ili” elan olunmasına görə cənab Prezidentə xüsusi təşəkkürünü ifadə etdi.



AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxış edərək, erməni faşizmi üzərində 44 günlük müharibədə qazanılan qələbə münasibətilə konfrans iştirakçılarını salamladı. Məhz bu ilin “Nizami ili” elan olunduğuna görə, böyük dühalarımızı dünyaya tanıtmaq yolunda göstərdiyi xidmətlərə görə ölkə başçısına təşəkkürünü bildirdi. Daha sonra Nizami yaradıcılığına toxunaraq, əsərlərindən nümunələr gətirib, şairin bütün insanların Tanrı qarşı-

sında bərabər olduğunu təbliğ etdiyini vurğuladı. İnsanın yalnız elmlə riyadan, ədalətsizlikdən, zülmdən



qurtula biləcəyini vurğulayan şairin yazdıqlarının bu gün də aktual olduğunu diqqətə çatdırdı.

Daha sonra AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, fil.f.d, dos. Aygün Bağırova çıxış edərək, akademik İsa Həbibbəyli adından konfrans iştirakçılarını salamladı. Nizami Gəncəvi irsinin önəmindən bəhs edərək, şairin yaradıcılığının əsrlərarası körpü olduğunu vurğuladı. Ədibin qoyub-getdiyi ədəbi irsi hər yaşda mümkün qədər yenidən oxumağın önəmini diqqətə çatdıran məruzəçi qeyd etdi ki, gənc yaşda oxucuya onun



eşq fəlsəfəsi maraqlı gələ bilərsə, yaşlı insana da onun müdriklik fəlsəfəsi maraqlı gələ bilər. Ədəbiyyat İnstitutu tərəfindən “Nizami ili” çərçivəsində Nizami yaradıcılığının seçilmiş nümunələrinin Azərbaycan diasporasının köməyi ilə Hollandiya, Argentina, Polşa və başqa ölkələrdə müxtəlif dillərə tərcümə olunaraq çap edildiyini nəzərə çatdıran direktor müavini konfransın keçirilməsinə görə AİI kollektivinə təşəkkürünü bildirdi.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov çıxış edərək, tədbirin önəmini qeyd etdi. Nizami Gəncəvinin Azərbaycan kimliyini əks etdirən bütün keyfiyyətlərə malik bir şəxsiyyət olduğunu diqqətə çatdıraraq, onun irsinin gələcək nəsillərə çatdırılmasının vacibliyini və bu yaradıcılığın hələ uzun illər yaşamalı olduğunu vurğuladı.

Misirdəki “Vətənpərvər” Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov məruzə etmək üçün söz aldı. S.Nəsirov apardığı tədqiqatlar zamanı Azərbaycanın qəhrəman, xeyirxah, elm və ədəbiyyata bağlı şəxsiyyətlər yetişdirdiyinin şahidi olduğunu diqqətə çatdırdı. Yaşadığı və fəaliyyət göstərdiyi Misirdə Nizami Gəncəvi irsinin öyrənilməsinə və təbliğinə daim xüsusi yer ayırdıqlarını, bu görkəmli ədibi təbliğ etməklə Azərbaycanı tanıtdıqlarını xüsusi qeyd etdi.



Fasilədən sonra konfrans panellərlə davam edib.

AİI Dinşünaslıq kafedrasıınn müdiri, f.f.d., dos. Anar Qafarovun moderatorluq etdiyi paneldə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, fil.e.d., prof. Əlizadə Əsgərli, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, fil.e.d., prof. Vüqar Əhməd, AMEA Qafqazşünaslıq İnstitutu Gürcüstanşünaslıq şöbəsinin müdiri, dos. Vahid Ömərov, AİI Dillər və ictimai fənlər kafedrasının müdiri, f.f.d., dos. İlkin Əlimuradov, AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, f.f.d., dos. Faiq Ələkbərov, Sumqayıt Dövlət Universiteti Fəlsəfə, sosiologiya və politologiya kafedrasının baş müəllimi, f.f.d. Fəridə Cəbrayılova, AİI İslamşünaslıq kafedrasının müəllimi, f.f.d. İbrahim Quliyev məruzələrlə çıxış etdilər.

AİI İslamşünaslıq kafedrasının müdiri, f.f.d. Əhməd Niyazovun moderatorluq etdiyi paneldə Gəncə Dövlət Universiteti Azərbaycan tarixi kafedrasının dosenti, t.f.d. Cavid Bağırzadə, AMEA Gəncə Bölməsinin baş mütəxəssisi, t.f.d. Elnur Həsənov, Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi, t.f.d. Əli Fərhadov, AİI-nin doktorantı Nərgizxatun Həsənova və ölkənin bir çox ali və təhsil müəssisələrindən olan tədqiqatçıların məruzələri dinlənildi.

Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olundu.



# AİI rektoru beynəlxalq elmi-praktiki konfransa qatılıb

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 31 may 2021-ci il tarixdə "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin təşkilatçılığı və Qazaxıstan



Müsəlmanları Ruhani İdarəsinin dəstəyi ilə Almatı şəhərində keçirilən beynəlxalq elmi-praktik konfransda onlayn iştirak edib. "Milli-mənəvi birliyin möhkəmlənməsində dini təhsilin rolu" mövzusunda təşkil olunan beynəlxalq elmi-praktik konfrans Qazaxıstan Respublikasının müstəqillik qazanmasının 30, ölkədə fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin yaranmasının 20 illiyinə həsr olunub.

AİI rəhbəri Aqil Şirinov konfransda məruzə ilə çıxış edib. Bildirib ki, din təhsili istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, dəyərlər sistemi olaraq din cəmiyyətin mənəvi inkişafında və ictimai birliyin təminində əvəzsiz rola malikdir.

Ölkəmizdə ali dini təhsil verən yeganə müəssisə olan Azərbaycan İlahiyyat İnstitutu haqqında məlumat verən rektor yüksək elmi təfəkkürə malik olan kadrların rəhbərliyində milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnən kadrlar hazırlamağı qarşısına məqsəd qoyduğunu vurğulayıb.



# İlahiyyat fakültəsinin dekanı beynəlxalq simpoziumda iştirak edib




Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova 2 iyun 2021-ci il tarixdə beynəlxalq simpoziumda onlayn iştirak edib.

Türkiyə Cümhuriyyəti Mərmərə Universitetinin təşkilatçılığı ilə keçirilən "Türküstandan Balkanlara türk sufizmi" beynəlxalq simpoziumunda dos. E.Əzizova "Türküstandan Balkanlara türk sufizmində Əhli-Beyt qadınları (məqtəli-Hüseynlər çərçivəsində)" mövzusunda məruzə edib.

E.Əzizova çıxışında türksoylu xalqların təsəvvüf mirasının ortaq tarixi-ədəbi növü olan məqtəli-Hüseynlərin inkişaf prosesini və Əhli-Beyt qadınlarının tnmsalında bu nümunələrin didaktik xüsusiyyətlərini təhlil edib.

Məruzəçi bu təhlillər əsasında türkdilli məqtəllərin ərəbcə və farsca olan nümunələri arasında qarşılıqlı müqayisə aparıb. Məqtəllərin, sadəcə, Kərbəla hadisəsi haqqında tarixi məlumat verən mənbə olmadığını bildirərək, əsrlərboyu təsəvvüf mühitində dövri olaraq oxunan bu əsərlərin həm də müsəlman cəmiyyətinə ideal insan amilləri aşılayan didaktik xüsusiyyətlər daşıdığını vurğulayıb.

E.Əzizova Kərbəla şəhidi Hüseyn ibn Əli başda olmaqla, Əhli-Beytin digər üzvlərinin, o cümlədən, qadın təmsilçilərinin nümunəsində məqtəllərin türksoylu xalqların kamil insan tipi formalaşdırmasında mühüm rol oynadığını bildirib.

# Yaz semestrinin yay imtahan sessiyası başladı



Azərbaycan İlahiyyat İnstitutunda 7 iyun 2021-ci il tarixdə 2020/2021-ci tədris ili üçün bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası başlayıb. Dörd həftə davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, "Microsoft Teams" platforması üzərindən şifahi, ehtiyac olduğu təqdirdə, yazılı formada həyata keçirilir.

Ali təhsil müəssisəsində xüsusi karantin rejiminin tələbləri və məsafədən tədrisin reallıqları nəzərə alınaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb. Qərargah mövcud şəraitə uyğun olaraq məsafədən onlayn şəkildə fəaliyyət göstərəcək. Daxil olan elektron müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılacaq və lazımi tədbirlər görüləcək.

Ali təhsil müəssisəsinin İlahiyyat fakültəsinin dekanlığı tələbələrlə imtahanqabağı "Microsoft Teams" platforması üzərindən görüş keçirib. İclasda tələbələrə onlayn formada təşkil olunacaq imtahan qaydaları barədə ətraflı məlumat verilib, mövzu ilə əlaqədar təhsilalanların fikirləri dinlənilib və sualları cavablandırılıb. Qeyd olunub ki, imtahan sessiyası ərzində mütəmadi şəkildə tələbələrin imtahanlarda qarşılaşa biləcəkləri problemlərlə bağlı görüşlərin keçirilməsi nəzərdə tutulur.

COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi distant formada keçirilib. AİI-də cari tədris prosesi Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən təşkil edilib.

Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev ali və orta ixtisas təhsili müəssisələrində 2020/2021-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının distant (məsafədən) keçirilməsi ilə bağlı müvafiq əmr imzalayıb.

# AİI-nin rektoru və müəllimləri beynəlxalq simpoziumda iştirak



Azərbaycan İlahiyyat İnstitutunun rektoru və müəllimləri 8 iyun 2021-ci il tarixdə "Orta Asiyadan Anadoluya İslam elmləri: şəhərlər, alimlər, əsərlər, məsələlər" mövzusunda beynəlxalq simpoziumda iştirak ediblər.

Türkiyə Cümhuriyyəti Karabük Universitetinin təşkilatçılığı ilə baş tutan beynəlxalq simpozium onlayn formatda keçirilib.

Qırğızıstan, Qazaxıstan və Özbəkistanın, o cümlədən digər ölkə universitet və tədqiqat təşkilatlarının alimlərinin iştirak etdikləri beynəlxalq tədbirdə İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "İslam mədəniyyətinin inkişafında ortaasiyalı alimlərin rolu" mövzusunda çıxış edib. A.Şirinov Orta Asiya alimləri haqqında ətraflı məlumat verərək, sözügedən mütəfəkkirlərin İslam mədəniyyətindəki xidmətlərindən ətraflı söz açıb.

Beynəlxalq simpoziumda AİI İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova "XVIII əsrdə Türküstanda dastanlaşmış bir məqtəl nümunəsi: Sayqalinin "Rövzətüş-şühəda"sında ilk dövr İslam tarixinə baxış" mövzusunda məruzə ilə çıxış edib. E.Əzizova məruzəsində türkdilli məqtəllərin təşəkkülünə təsir edən mənbələrin təsnifatını aparıb, bu növün daha çox filoloji cəhətdən tədqiq olunmuş bir nümunəsi kimi, Sabir Sayqalinin "Rövzətü-şühəda" əsərini tarixi perspektivdən tədqiq edib.

İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov sözügedən simpoziumda "Zəməxşəri və Xarəzm" panelinin moderatorluğunu edib, həmçinin "XIX əsr Qafqazda islahatçılar və onların sosial həyata təsirləri" mövzusunda mühazirə ilə çıxış edib. Əhməd Niyazov XIX əsr Azərbaycanda islahatçılıq hərəkatının qabaqcılları və onların maarifçilik fəaliyyəti barədə ətraflı məlumat verib.

Azərbaycan
İlahiyyat İnstitutu
Bülleten
№ 3
yanvar-iyun
2021






















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Ayaz Mikayıl-zadə

**Ünvan:**
Əhməd Cəmil, 41A

**Əlaqə nömrəsi:**
(+994) 12 510 65 45

Tiraj: 500
**“Nurlar”**
Nəşriyyat-Poliqrafiya
Mərkəzində
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu